RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 229 (8822) ŞƏNBƏ, 23 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Zəfərin izi ilə



## Azərbaycanın ən böyük tikinti meydanı

## Azad yurdum

*Bir qrup rayon sakini ilə möhtərəm Prezidentlə Zəngilanın işğaldan azad edilməsinin birilliyinə həsr edilən görüşə gedirdik...*

*"İşğaldan azad olunmuş ərazilərə daxil olursunuz" lövhəsi ilə bizi qarşılayır Qarabağ və Şərqi Zəngəzur torpaqları...*

*"Zəfər yolu" ilə irəliləyirik...*

*Bütün yollar Vətən yoludur...*

*Ətraf mənzərələr erməni vəhşiliyinin, vandallığının qanlı nümunələrini, dağıntılarını, fəlakətlərini aydın göstərir...*

*Həm də quruculuğun - tək Azərbaycanın yox, Qafqazın ən böyük tikinti meydanına çevrilən bu ərazilərdəki dirçəlişin qürurverici mənzərələrini fəxrlə seyr edirik...*

*Ardı 6-cı səh.*



## İlham Əliyev yeni Şuşanın baş memarıdır

**"Zəfər yolu" ilə Füzulidən Xocavəndə və Şuşaya doğru irəlilədikcə çoxsaylı ağır inşaat texnikalarını - ekskavatorlar, kranlar və yük maşınlarını müşahidə etdik. Yolboyu demək olar ki, hər yerdə qızğın tikinti işləri gedir. Yollar, körpülər, tunellər, su və elektrik xətləri, drenaj sistemləri inşa olunur. Bu torpaqları işğaldan azad edən dövlətimiz indi ona yeni həyat bəxş edir. Qarabağın mirvarisi olan Şuşanın özü isə elə şəhərin girəcəyindən görünür ki, böyük tikinti meydanıdır…**

### Şuşaya Prezidentin 5 səfəri

Şuşa qədim Azərbaycan şəhəridir. Hər küçəsində xalqımıza məxsus dəyərlərin, milli mədəniyyətin, milli arxitekturanın izlərini yaşadır. Şəhərdəki hər bir ev, möhtəşəm qala divarları, məscidlər, qədd-qamətli minarələr keçmişimizdən soraq verir. Şuşa xalqımızın elə bir möhtəşm mədəni abidəsidir ki, düşmən onu erməniləşdirə bilmədi. Bu şəhər 28 il yarım davam edən işğal dövründə erməniləri qəbul etmədi. Çünki Şuşa onlar üçün əvvəldən yad idi, işğal dövründə də yad olaraq qaldı. İlham Əliyevin dediyi kimi, Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib.

Ermənistan işğal dövründə nə qədər cəhd etsə də, Şuşanı məskunlaşdıra da bilməyib və şəhərdə əsasən hərbçilər yaşayıblar. Erməni diasporunun hesabına nə qədər layihələr həyata keçirilsə də, işğalçılar Şuşanı turizm məkanına çevirə bilməyiblər. Fransadan və digər ölkələrdən nümayəndə heyətləri gəlsə də, hər il müxtəlif idman yarışları keçirilsə də, ermənilər Şuşa ilə bağlı hədəflərinə yetişməyiblər. Çünki Şuşa heç vaxt yadları qəbul etməyib.

Bütün bunlar barədə danışan Prezident İlham Əliyev deyib: "Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır. Necə ki bütün dövrlərdə Şuşa həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb və qəbul edib".

Hazırda şəhərin bərpası və yenidən qurulması Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəni Şuşa rayonuna təyin edib. 2020-ci ilin noyabr ayından 2021-ci ilin avqust ayına qədər 15 dəfə işğaldan azad olunmuş rayonlara səfər edən Prezident İlham Əliyev 5 dəfə Şuşada olub.

*Ardı 7-ci səh.*

## Milli Gimnastika Arenasında bir sıra mötəbər beynəlxalq yarışların təşkili planlaşdırılır




**Oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Milli Gimnastika Arenasının yeni məşq binasında yaradılan şəraitlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, gənclər və idman naziri Fərid Qayıbov Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya Milli Gimnastika Arenasının ərazisində yerləşən yeni məşq binasında yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Milli Gimnastika Arenasının yeni məşq binasının tikintisi ötən ilin sentyabrında başa çatdırılıb. Burada kişi və qadın idman gimnastikası, bədii gimnastika, batut gimnastikası, ümumilikdə, gimnastikanın 7 növü üzrə məşqlər keçirilir. Binada məşqçi və həkim otaqları, həmçinin gimnastlar üçün istirahət otaqları, fitnes və xoreoqrafiya zalları fəaliyyət göstərir. Burada hovuz da yaradılıb. Yeni binada eyni vaxtda 100 nəfər məşq edə bilər. Binanın ikinci mərtəbəsində idmançıların yaşayışı üçün 60 çarpayılıq 19 otaq vardır. Bir sözlə, Milli Gimnastika Arenasının yeni məşq binasında təlim-məşq toplantıları təşkil etmək, gimnastikanın müxtəlif növləri üzrə təlim keçmək və beynəlxalq yarışların yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait yaradılıb.

*Ardı 2-ci səh.*

## DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi sosial cəhətdən həssas qrupların istedadının ortaya çıxarılmasına kömək edəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva oktyabrın 22-də Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində yaradılan şərait barədə məlumat verdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi əlilliyi olan şəxslərin, o cümlədən müharibə əlillərinin, şəhid ailələri üzvlərinin, habelə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etməkdir. Mərkəzin tikintisi "PAŞA Holding" tərəfindən maliyyələşdirilib, arxitektura, layihələndirmə və təşkilati dəstək isə "Cobalt Architecture and Design" şirkəti tərəfindən təmin edilib.

*Ardı 3-cü səh.*

## Macarıstanın Prezidenti zati-aliləri cənab Yanoş Aderə

Hörmətli cənab Prezident!

Macarıstanın milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz Azərbaycan-Macarıstan münasibətlərinin hərtərəfli inkişafına mühüm əhəmiyyət veririk. Strateji tərəfdaş olan ölkələrimizi birləşdirən sıx dostluq və əməkdaşlıq münasibətləri bu gün yüksək səviyyəli siyasi dialoq, iqtisadi-ticari, humanitar və digər sahələrdə yeni məzmunla zənginləşir.

Əminəm ki, ölkələrimiz arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan əlaqələr, səmərəli əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahı naminə uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Macarıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2021-ci il*

## Günün idman manşeti



## 50-Cİ QƏLƏBƏ

### Ağdamın "Qarabağ"ı avrokuboklarda növbəti möcüzəsinə imzasını atdı

**UEFA Konfrans Liqası**

*H qrupu, 3-cü tur*

**"Qarabağ" (Azərbaycan)** - "Kayrat" (Qazaxıstan) - 2:1

**Qol:** Kante, 19-pen. (0:1), Ramil Şeydayev, 79 (1:1), Abbas Hüseynov, 90+1 (2:1) Baş hakim: Yevgeni Aranovski (Ukrayna) Tofiq Bəhramov adına Respublika Stadionu.

Qarşılaşmaya həddindən artıq böyük maraq olduğundan Tofiq Bəhramov adına Respublika Stadionunun qarşısında izdiham var idi. Belə ki, avrokuboklarda yeganə təmsilçimiz Ağdamın "Qarabağ" komandasının UEFA Konfrans Liqasının H qrupunda keçirdiyi son 2 matçdakı nəticələri Qazaxıstan təmsilçisi "Kayrat"la oyuna marağı daha da artırmışdı.

Matçın təhlilinə keçmədən öncə vurğulayaq ki, "Kayrat" üzərində qazanılan əzmkar qalibiyyət "Qarabağ"ın avrokuboklarda yubiley - 50-ci qələbəsi kimi tarixə düşdü. Ağdam klubu qələbələrin 16-sını ən nüfuzlu turnir sayılan Çempionlar Liqasında, 27-sini UEFA Kuboku/Avropa Liqasında, 1-ini İntertotoda, nəhayət, 6-sını Konfrans Liqasında əldə edib.

*Ardı 9-cu səh.*

◆ Müəllifi İlham Əliyevdir

## Hər iş "ASAN", vətəndaş məmnun

**Azərbaycanda həyata keçirilən islahatların əsas istiqamətlərindən biri də hökumət-vətəndaş münasibətlərində daha çevik mexanizmlərin tətbiqidir.**

Fərəhli haldır ki, son illərdə bu istiqamətdə mühüm tədbirlər həyata keçirilib, xüsusən əhaliyə xidmət sahəsində şəffaflıq və operativlik təmin olunub.



*Ardı 9-cu səh.*

# Milli Gimnastika Arenasında bir sıra mötəbər beynəlxalq yarışların təşkili planlaşdırılır











Əvvəli 1-ci səh.

Yeri gəlmişkən, gələn ay burada batut gimnastikası üzrə Dünya Çempionatının keçirilməsi nəzərdə tutulur. Ümumilikdə isə gələn il Milli Gimnastika Arenasında bir sıra mötəbər beynəlxalq yarışların təşkili planlaşdırılır.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva gimnastların məşqlərinə baxdılar və xatirə şəkli çəkdirdilər.

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycanın dünyanın nüfuzlu idman ölkəsinə çevrilməsinə, respublikanın hər yerində müasir idman infrastrukturunun yaradılmasına, yeni-yeni idman obyektlərinin tikilib istifadəyə verilməsinə, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsinə, idmanın bütün növlərinin inkişaf etdirilməsinə həmişə xüsusi diqqət yetirib. Dövlət başçısının və birinci xanımın iştirakı ilə 2014-cü ildə Bakıda istifadəyə verilən Milli Gimnastika Arenası idmanın bu növünün inkişafına geniş imkanlar açıb, gənc nəslin gimnastikaya olan həvəsinin artırılması işində mühüm rol oynayıb.



Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan Gimnastika Federasiyasının əldə etdiyi böyük uğurlar Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərliyi sayəsində mümkün olub. Belə ki, 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban Əliyevanın fəaliyyəti nəticəsində ölkədə idmanın bu növünün inkişaf mərhələsi başlayıb, gimnastika ilə məşğul olan idmançıların beynəlxalq yarışlarda qazandığı uğurların sayı artıb.

# DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi sosial cəhətdən həssas qrupların istedadının ortaya çıxarılmasına kömək edəcək









*Əvvəli 1-ci səh.*

Mərkəz sosial tərəfdaşlıq prinsipinə uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyinə verilib.

Burada əlilliyi olan şəxslərə milli və Avropa kulinariyası üzrə 15 yaşdan yuxarı 5 nəfərlik qrup üçün təlim, həmçinin kulinariya yarmarkalarının keçirilməsi, kulinariya verilişlərinin çəkilməsi nəzərdə tutulur.

Mərkəzdəki audio-səsyazma studiyasında vokal bacarıqların inkişaf etdirilməsi, audiodisklərin və solo albomların yazılması, videoçarxların, sənədli və bədii filmlərin, teletamaşaların dublyaj edilməsi nəzərdə tutulur. Studiyada yaş məhdudiyyəti yoxdur.

Floristika və landşaft dizaynı studiyasında isə dekorativ-tətbiqi sənət və dizayn növü olan floristika və landşaft dizaynının təlimi, süni, qurudulmuş və canlı güllərdən ibarət natürmortların hazırlanması, gül kompozisiyalarının yığılması, terrarium və bitki rezervuarlarının dizaynı və quraşdırılması nəzərdə tutulur. Studiyada eyni vaxtda 8 nəfərə, gün ərzində 2 qrupa təlimlərin keçirilməsi mümkündür. Təlimlərdə yaşı 10-15-dən yuxarı olan şəxslər iştirak edə bilərlər.

Metal və ağacoyma studiyasında dekorativ-tətbiqi sənətin növü olan ağac, metal, daş üzərində bədii oyma sənəti tədris ediləcək. Studiyada artıq ağac üzərində oyma üsulu ilə hazırlanmış musiqi alətləri, milli mədəniyyət abidələri, heykəl və fiqurlu kompozisiyalar təqdim olunur. Bu studiyada eyni vaxtda 8-10 yaşdan yuxarı 6 nəfərə, gün ərzində 2 qrupa təlimin keçirilməsi mümkündür.

Xalçaçılıq, tikiş, toxuma və tikmə studiyasında dekorativ-tətbiqi sənətin əsas növü olan Azərbaycan xalçaçılıq sənəti və onun mühüm 7 xalçaçılıq məktəbinin əsasları tədris ediləcək. Burada ilmə-naxış texnikası, rəng ahənginin seçilməsi, yun iplərin boyanması, bədii tikmə növünün ən qədim və geniş yayılmış pilətikmə forması, qızılı saplarla, muncuqla milli və müasir geyimlərin işlənməsi, dizaynı öyrədiləcək. Studiyada eyni vaxtda 6-8 yaşdan yuxarı 7 nəfərə təlimin keçirilməsi mümkündür. Gün ərzində hər sahə üzrə bir qrup tədris prosesində iştirak edəcək.







Musiqi studiyasında Azərbaycan milli musiqi sənətinin, çalğı, vokal dərslərinin tədrisi nəzərdə tutulur. Studiyada çalğı, vokal qabiliyyəti, musiqi biliyi olan 4 yaşdan yuxarı 20-25 nəfər eyni vaxtda təlimlərə qatılacaq. Gələcəkdə əlilliyi olan musiqiçilərdən ibarət instrumental və vokal ansamblın yaradılması nəzərdə tutulur.

Mərkəzin açıq havada müxtəlif tədbirlərin keçirilməsi üçün geniş həyətyanı sahəsi də var. Burada reabilitasiya məqsədi ilə meditasiya, yoqa və digər fiziki təlimlərin, müxtəlif sərgilərin, satış-sərgi yarmarkalarının təşkili, floristika və landşaft dizaynı üzrə təlimlərin keçirilməsi, həmçinin pavilyon kimi istifadə edilərək inklüziv televiziya verilişlərinin çəkilməsi üçün şərait var.

Mərkəzin keramika studiyasında dulusçuluq sənət növü üzrə bacarıqlar, o cümlədən keramik əşya, dekorativ məmulatların hazırlanması və rənglənməsi, farfor qablar və dekorativ məmulatların milli naxışlarla bəzədilməsi, dekorativ heykəltaraşlıq öyrədiləcək. Studiyada eyni vaxtda 8 yaşdan yuxarı 9 nəfərə təlim keçirilməsi mümkündür.

Təsviri sənət studiyasında kətan üzərində yağlı boya, akvarellə, kağız üzərində qrafit və tuş, vitraj boya vasitəsilə şüşə üzərində, sulu boya ilə ipək üzərində rəsm sənətinin öyrədilməsi nəzərdə tutulur. Studiyada 5 yaşdan yuxarı eyni vaxtda 10 nəfərə, gün ərzində 2 qrupa təlim keçiriləcək.

Rəqs zalında fiziki məhdudiyyətli və peşəkar insanların birgə rəqs təliminin keçirilməsi və gələcəkdə peşəkar inklüziv rəqs kollektivinin yaradılması nəzərdə tutulur. Həmçinin burada yerli və xarici xoreoqraflarla təlimlər və ustad dərsləri də planlaşdırılır. Zalda eyni vaxtda 30 nəfərə rəqs dərslərinin keçirilməsi mümkündür. Peşəkar rəqs təlimində iştirak edən əlilliyi olan şəxslər 10-34, inkişaf rəqqasları isə 15-34 yaş arasında olacaqlar. Digər fizioloji reabilitasiya təlimində isə 5 yaşdan yuxarı şəxslər iştirak edə bilərlər.

Mərkəzin 121 nəfərlik auditoriyasında kinoteatr və teletamaşaların təqdimatı mümkündür. Səhnədə müasir plastika, musiqili janr üslublu və emosional teatr quruluşlarının, müxtəlif musiqili konsert proqramlarının, dövlət əhəmiyyətli tədbirlərin keçirilməsi üçün şərait yaradılıb. Burada sosial müəssisə sakinləri üçün ödənişsiz film nümayişləri planlaşdırılır. Səhnədə eyni vaxtda 25-30 nəfərlik tərkibdə teatr tamaşalarının və konsertlərin keçirilməsi mümkündür.

Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin reallaşdırdığı “Bərabərik” televiziya layihəsi və inklüziv teatrlarla bağlı məlumat verildi.

Mərkəzdə kitabxana da yaradılıb. Burada Azərbaycan milli ədəbiyyatına, həmçinin xarici dillərdə müxtəlif peşə və sənət tədrisinə dair kitablar var. Kitabxanada görmə məhdudiyyətli şəxslərin bədii yaradıcılığının inkişafı üçün brayl əlifbası ilə kitablardan ibarət guşələrin yaradılması, əlilliyi olan şəxslərin kitablarının təqdimatının, məşhur yazıçıların iştirakı ilə qiraət günlərinin, yerli və xarici yazarların imza günlərinin keçirilməsi nəzərdə tutulur.

İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində 60 nəfər işçi heyət və “Könüllü DOST” üzrə 20 nəfər könüllü fəaliyyət göstərəcək.

❖ ❖ ❖

Mərkəzin yaxınlığındakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından Prezident İlham Əliyevi, birinci xanım Mehriban Əliyevanı və qızları Leyla Əliyevanı salamladılar.

# Moldova Parlamentinin sədri: "Ölkəmiz Azərbaycanla çoxtərəfli əlaqələrin inkişafında maraqlıdır"

**Yunanıstanın paytaxtı Afinada işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 21-də səfər çərçivəsində Moldova parlamentinin sədri İqor Qrosu ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Sahibə Qafarova Azərbaycanla Moldova arasında diplomatik əlaqələrin qurulmasından, hökumətlərarası birgə komissiyanın yaradılmasından, siyasi və iqtisadi münasibətlərin inkişafından söz açıb. Milli Məclisin Sədri ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsində dövlət başçılarının və hökumət rəsmilərinin qarşılıqlı səfərlərinin, aparılan müzakirələrin və tərəflər arasında imzalanan sənədlərin əhəmiyyətini qeyd edib.

Görüşdə S.Qafarova Azərbaycanla Moldovanın qanunverici orqanları arasında mövcud əməkdaşlıq əlaqələri və bu münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərdiyini qeyd edib.

Söhbət zamanı Sahibə Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərin birinci ildönümü ərəfəsində olduğumuzu vurğulayıb, 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli Bəyanatdan sonra bölgədə yaranmış yeni reallıqlardan söz açıb. Milli Məclisin Sədri həmkarının diqqətinə çatdırıb ki, bir il əvvəl öz gücü hesabına Ermənistanın 30 illik işğalına son qoyan və ərazi bütövlüyünü bərpa edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış 4 qətnaməsinin icrasını da təmin edib.

Milli Məclisin Sədri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işləri barədə də məlumat verib. Qeyd edib ki, münaqişə artıq tarixə qovuşub. İndi ölkəmiz bölgədə uzunmüddətli sülhün və sabitliyin təmin olunmasında maraqlıdır və bu istiqamətdə lazımi addımlar atır. Ermənistan isə hələ də təxribatçı əməllərini davam etdirir, minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtina edir.

Moldova Parlamentinin sədri İqor Qrosu ölkəsinin Azərbaycanla çoxtərəfli əlaqələrin inkişafında maraqlı olduğunu bildirib. O, ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, ikitərəfli səfərlərin intensivləşməsinin vacibliyini qeyd edib. Ölkəsində məskunlaşmış azərbaycanlıların ictimai-siyasi həyatda yaxından və fəal iştirak etdiklərini diqqətə çatdırıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

# Volfqanq SOBOTKA: "Avstriya ilə Azərbaycan arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün hər iki tərəfdə böyük potensial var"

Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstana işgüzar səfəri çərçivəsində Avstriya Respublikası parlamenti Milli Şurasının sədri Volfqanq Sobotka ilə görüşüb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Sahibə Qafarova ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsində dövlət başçıları və hökumət rəsmilərinin qarşılıqlı səfərlərinin və bu səfərlər zamanı imzalanan sənədlərin əhəmiyyətindən danışıb. Diqqətə çatdırıb ki, Azərbaycan Avstriya ilə ikitərəfli əlaqələrin inkişafında, həmçinin beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığın genişlənməsində maraqlıdır.

Söhbət zamanı Milli Məclisin Sədri Azərbaycanla Avstriya parlamentləri arasında əməkdaşlığın inkişaf perspektivləri barədə danışıb.

Görüşdə Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərin birinci ildönümü ərəfəsindəyik. Bir il öncə Ermənistanın 30 illik işğalına öz gücü hesabına son qoyan və ərazi bütövlüyünü bərpa edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış 4 qətnaməsinin icrasını təmin edib. Ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra bölgədə yeni reallıqlar yaranıb. Milli Məclisin Sədri bildirib ki, münaqişə artıq tarixə qovuşub. Hazırda Azərbaycan gələcəyə hədəflənmiş layihələr icra edir, işğaldan azad olunmuş ərazilərimizdə sürətli bərpa və quruculuq işləri aparılır. Sahibə Qafarova xatırladıb ki, cari ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu Fərmana əsasən, iki yeni rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. O deyib ki, 10 noyabr Bəyanatından bir ilə yaxın vaxt ötməsinə baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməyib. Bu, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır.

Söhbət zamanı Avstriya parlamenti Milli Şurasının sədri Volfqanq Sobotka iki ölkə arasında parlamentlərarası əlaqələri daha da inkişaf etdirmək üçün qarşılıqlı səfərlərin vacibliyini qeyd edib. O, Azərbaycanın regiondakı iri beynəlxalq enerji və infrastruktur layihələrin həyata keçirilməsindəki aparıcı rolu, ölkəmizin Avropanın etibarlı enerji tərəfdaşı qismində çıxış etməsi barədə danışıb. Diqqətə çatdırıb ki, ticarət əlaqələrinin və investisiya yatırımlarının artırılması üçün hər iki tərəfdə böyük potensial var.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

# Milli Məclisin Sədri Sahibə Qafarova ATƏT PA-nın sədri ilə görüşüb





Oktyabrın 21-də Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstana işgüzar səfəri çərçivəsində Afinada ATƏT Parlament Assambleyasının sədri Marqareta Sederfelt ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ATƏT Parlament Assambleyası sədrinin müraciəti əsasında baş tutan görüşdə Azərbaycan Milli Məclisinin sədrini salamlayan Marqareta Sederfelt təmsil etdiyi təşkilatın fəaliyyəti barədə məlumat verib. O, qlobal pandemiya səbəbindən görüşlərin və canlı təmasların böyük qisminin baş tutmadığını bildirərək, ümidvar olduğunu deyib ki, pandemiya təhlükəsi aradan qalxdıqdan sonra belə görüşlər daha sıx-sıx keçiriləcək. Marqareta Sederfelt ATƏT PA-nın Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edib, həmçinin regionda sülh və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğulayıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın təşkilatdakı fəaliyyəti barədə danışıb, ölkəmizin nümayəndə heyətinin həmişə ATƏT PA-nın tədbirlərində fəal iştirak etdiyini bildirib.

Spiker görüşdə Azərbaycanın ötən il 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdən sonra regionda yeni mərhələnin başlandığını qeyd edib. Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımızı azad edərək ərazi bütövlüyünü bərpa edib. Bununla da ölkəmiz həm də BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini özü yerinə yetirib. Spiker vurğulayıb ki, Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli Bəyanatla münaqişəyə son qoyulub və Dağlıq Qarabağ münaqişəsi artıq keçmişdə qalıb. Milli Məclisin Sədri "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinə istinad etməyin də yolverilməz olduğunu bildirib.

Azərbaycanın üçtərəfli Bəyanatda əksini tapan bütün öhdəliklərini yerinə yetirdiyini bildirən Sahibə Qafarova vurğulayıb ki, Ermənistan tərəfindən törədilən təxribatlar regionda davamlı sülhün təmin olunmasına maneə törədir. O deyib ki, 10 noyabr Bəyanatından bir ilə yaxın vaxt ötməsinə baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməyib. Onlar tərəfindən təqdim olunan bəzi xəritələrin dəqiqliyi isə yalnız 25 faizdir. S.Qafarova xüsusi olaraq vurğulayıb ki, bu günədək Ermənistan tərəfindən basdırılan minaların partlaması nəticəsində 150 mülki vətəndaş və hərbçimiz həlak olub və ya ağır yaralanıb. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu fərmana əsasən, iki yeni rayon - Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlayıb.

Sahibə Qafarova deyib ki, Azərbaycan regionda daimi sülh və əmin-amanlığın təmin olunmasını istəyir. O xatırladıb ki, Prezident İlham Əliyev də ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına və sülh sazişinə dair danışıqlara başlamağa hazır olduğunu bəyan edib.

Azərbaycanın çoxmillətli ölkə olduğunu, burada 90-dan çox etnik qrupun, müxtəlif xalqların və millətlərin nümayəndələrinin yaşadığını, bütün xalqların adət-ənənəsinə hörmətlə yanaşıldığını, ölkəmizdə ksenofobiya və dözümsüzlüyün olmadığını vurğulayan Milli Məclisin Sədri Azərbaycanın dövlət siyasətində milli və dini tolerantlığın prioritet istiqamətlərdən olduğunu bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova ATƏT Parlament Assambleyasının sədrinə "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitabı təqdim edərək, Ermənistanın 30 il ərzində işğal altında saxladığı Azərbaycanın şəhər və rayonlarını, bütün infrastrukturu, mədəniyyət və tarixi abidələri, dini abidələri tamamilə dağıtdığını, talan etdiyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri: "Parlamentlər demokratik institutların qarşısında duran vəzifələri həll etmək üçün hərəkətə keçməlidir"




**Oktyabrın 22-də Milli Məclisin Sədri Sahibə Qafarova Parlament Sədrlərinin Avropa Konfransında "Bütün Avropa vətəndaşlarının ümumi gələcəyi" mövzusunda çıxış edib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Sahibə Qafarova toplantı üçün seçilmiş mövzunun Avropanın ümumi gələcəyi ilə bağlı məsələlərin geniş bir kompleksini müzakirə etməyə imkan yaratdığını qeyd edib. Diqqətə çatdırılıb ki, 72 il bundan əvvəl Avropa xalqları Avropa Şurasının simasında ümumi Avropa evi qurmağı qərara aldılar. Onlar bəyan etdilər ki, Avropada daha böyük vəhdətə nail olmağın ən səmərəli vasitələri plüralist demokratiya, qanunun aliliyi və insan hüquqlarıdır. Ötən dövrdə Avropada çox şey dəyişsə də, Avropa xalqlarını ümumi evdə ümumi dəyərlər ətrafında birləşdirən bu prinsiplər dəyişməz qalıb.

Milli Məclisin Sədri deyib ki, əgər ötən dövrdə Avropanın əksər ölkələrində demokratiyanın inkişafı yolunda qarşıya çıxan çətinliklər əsasən daxili xarakter daşıyırdısa, müasir dünya bu problemlər siyahısını daha da artıraraq ona terrorizm, transmilli cinayətkarlıq, qanunsuz miqrasiya kimi problemləri də əlavə edib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, müasir dövrün çağırışları demokratik idarəçilik problemlərinin ötən dövrdə təşəkkül tapmış paradiqma çərçivəsində həllinin mümkün olmadığını göstərir. O, məsələlərin həllində ayrı-seçkiliyi istisna edən vahid yanaşmanın formalaşdırılmasının, demokratik dəyərlər sistemi üçün təhdidlər doğuran təhlükəsizlik problemlərinin, xüsusən dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə qəsdlərin, etnik separatizmin, davakar millətçiliyin dayandırılmasının və aradan qaldırılmasının vacibliyini qeyd edib.

Milli Məclisin Sədri beynəlxalq problemlər və çağırışlar üçün birgə həll yolunun işlənib hazırlanması məqsədilə dünya parlamentlərini bir araya gətirməyin mühüm əhəmiyyət kəsb etdiyinə inamını ifadə edib. Deyib ki, Avropa Şurasının iki üzvü olan Ermənistanla Azərbaycan arasında mövcud olmuş və artıq keçmişdə qalmış münaqişənin həlli ilə bağlı danışıqların uğursuzluqla nəticələnməsi timsalında söyləyə bilərik ki, ortaq həll yolunun tapılmaması dövlətlərarası uzunmüddətli münaqişələrə səbəb olur. Uzun illər ərzində münaqişənin sülh yolu ilə nizama salınması üçün göstərilən beynəlxalq səylərin nəticə verməməsinin bir səbəbi Ermənistanın beynəlxalq hüquq normalarına və prinsiplərinə məhəl qoymaması, danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutması idisə, digər səbəbi təcavüzkar dövlətin öz adı ilə çağırılmaması, bir sıra hallarda işğalçı dövlətlə işğala məruz qalan dövlətin bir tutulması, beynəlxalq birliyin tələblərinə məhəl qoymayan, beynəlxalq qaydalara meydan oxuyan Ermənistan dövlətinə münasibətdə lazımi qətiyyət göstərilməməsi olub.

Bildirilib ki, əgər münaqişənin həllində ikili standartlara yol verilməsəydi, Azərbaycan işğal edilmiş torpaqlarının azad edilməsi barədə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini, digər beynəlxalq təşkilatların sənədlərini öz gücü ilə icra etməyə məcbur olmazdı.

Sahibə Qafarova xatırladıb ki, ötən il sentyabrın 27-də Ermənistanın daha bir təxribatından sonra Azərbaycan BMT-nin Nizamnaməsi ilə nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə edərək təcavüzkarı dayandırmaq və Azərbaycan torpaqlarının işğalına son qoymaq üçün əks-hücum əməliyyatlarına başladı. Xalqımızın 44 günlük Vətən müharibəsi nəticəsində biz beynəlxalq ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Bununla da Cənubi Qafqaz bölgəsində yeni geosiyasi reallıq yarandı.

Parlamentin Sədri diqqətə çatdırıb ki, "Dağlıq Qarabağ" münaqişəsi artıq mövcud deyil. Ermənistan yeni reallıqla barışaraq onu qəbul etməli, 2020-ci ilin noyabrında və 2021-ci ilin yanvarında imzalanmış, bölgənin sülh və təhlükəsizlik məkanına çevrilməsinin parametrlərini özündə ehtiva edən üçtərəfli bəyanatları tam yerinə yetirməlidir.

"Hesab edirik ki, bölgənin sülh, sabitlik və inkişaf məkanına çevrilməsi Avropanın gələcəyi baxımından da son dərəcə əhəmiyyətlidir", - deyən Milli Məclisin Sədri vurğulayıb ki, parlamentlər demokratik institutların və siyasi sistemlərimizin qarşısında duran vəzifələri həll etmək üçün hərəkətə keçməlidir. Biz diqqəti daha çox enerjili vətəndaş cəmiyyətinin mədəni müxtəlifliyinə və diskriminasiyanın olmadığı, inklüzivlik, tolerantlıq, ədalət, həmrəylik kimi ümumi dəyərlərə malik cəmiyyətə yönəltməliyik. Bu cəmiyyətdə insanlar inanmalıdırlar ki, demokratiya, insan hüquqları, gender bərabərliyi və qanunun aliliyi prinsipləri dayanıqlı sülh və tərəqqiyə nail olmaq üçün ən yaxşı vasitədir.

# "Təhsil haqqında" qanuna dəyişikliklər təhsilin fasiləsizliyinin təmin edilməsinə şərait yaradacaq

Oktyabrın 22-də Milli Məclisin Elm və təhsil komitəsinin növbəti onlayn iclası keçirilib.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə komitənin sədri Bəxtiyar Əliyev gündəliyi təqdim edib. Bildirib ki, gündəliyə ikinci oxunuşda "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri daxildir. Gündəliyin təsdiqindən sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev birinci oxunuşdan sonra layihələrlə bağlı görülmüş işlər barədə məlumat verib, deputatların dəyişikliklər barədə müsbət fikirlər söylədiklərini və sənədləri konseptual baxımdan dəstəklədiklərini bildirib.

Sonra komitə sədri Bəxtiyar Əliyev hər iki layihənin ikinci oxunuşu barədə məlumat verib. O, Azərbaycanda müasir dövrün əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması üçün peşə təhsili sisteminin keyfiyyətinin artırılması və genişləndirilməsi istiqamətində görülən işlərdən danışıb, regional peşə təhsili mərkəzlərinin istifadəyə verilməsinin əhəmiyyətini qeyd edib. Təhsilin bir çox aktual məsələlərinin qanunvericilik səviyyəsində həllinə baxıldığını, təhsil sahəsində islahatların davam etdiyini bildirən komitə sədri iclasın müzakirəsinə çıxarılan qanun layihələrinin də gənclərimizin daha keyfiyyətli peşə təhsili ilə əhatə olunmasına, təhsil səviyyələri arasında bağlılığı gücləndirməklə təhsilin fasiləsizliyinin təmin edilməsinə, təhsilimizin Avropa Kredit Transfer Sisteminə inteqrasiyasına, ali təhsilin əlçatanlığının artırılmasına xidmət etdiyini vurğulayıb.

Müzakirələrdə çıxış edən Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı, komitə üzvləri Tamam Cəfərova, Şahin Seyidzadə, Eldar Quliyev, İsa Həbibbəyli, Müşfiq Məmmədli, Aqiyə Naxçıvanlı, Kamilə Əliyeva qanun layihələri ilə bağlı fikirlərini bildirib, rəy və təkliflərini səsləndiriblər. Deputatlar mahiyyət etibarilə bir-biri ilə bağlı olan layihələrdə təhsilin subbakalavr pillələri üzrə tədrisin təşkilində kredit sisteminin tətbiqini, yüksək texniki peşə təhsili alanlara da tam orta təhsil almaq hüququnun verilməsini və onların təhsilin növbəti mərhələsi olan bakalavriat səviyyəsinə keçidinin asanlaşdırılmasını mütərəqqi dəyişikliklər adlandırıblar.

Deputatlar hər iki qanun layihəsini ikinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Onlayn iclasda Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri Ülviyyə Ağayeva, Etibar Əliyev, Afət Həsənova, Rafael Hüseynov, Pərvin Kərimzadə, Ceyhun Məmmədov və digər rəsmi şəxslər iştirak ediblər.

# *Ziyafət ƏSGƏROV:* "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordu-xalq birliyimiz əbədidir"



Oktyabrın 22-də Milli Məclisdə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin təşkilatçılığı ilə Vətən müharibəsində qazanılmış şanlı Zəfərin birinci ildönümünə həsr olunmuş konfrans keçirilib. Konfransda Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, komitənin üzvləri, Milli Məclis Aparatının əməkdaşları, dəvət olunmuş hərbçilər, KİV nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Vətən uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, onlara Allahdan rəhmət dilənib.

Tədbirin Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü və tövsiyəsi ilə keçirildiyini diqqətə çatdıran Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib ki, məqsəd 44 günlük Vətən müharibəsində bizim qalibiyyətimizin, Azərbaycanın böyük Zəfərinin əhəmiyyəti haqqında söhbət açmaq, fikirlərimizi bölüşmək, həmin günlərdə Ermənistan tərəfinin bütün humanitar qaydaları pozmasını və müvafiq beynəlxalq konvensiyalara zidd hərəkətlərini müzakirə etməkdir.

Qırx dörd günlük müharibədə qazanılan Qələbəyə aparan yoldan söz açan komitə sədri müstəqilliyini 1991-ci ildə bərpa edən Azərbaycanda ordu quruculuğunun məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlandığını vurğulayıb. Qalibiyyətin təməl prinsiplərinin 1993-cü ildən etibarən öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulduğunu, sonra isə bu siyasi kursun Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. Uzun illər aparılan məqsədyönlü dövlət siyasəti nəticəsində ölkəmizdə müasir texnika ilə təchiz edilmiş, yüksək səviyyəli peşəkar hərbi kadrlara malik güclü Azərbaycan Ordusunun yarandığını bildirib. Vurğulayıb ki, 2020-ci ilin payızında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 30 illik işğala son qoyulması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış 4 qətnaməsinin icrası rəşadətli Azərbaycan Ordusunun nəyə qadir olduğunu, Azərbaycan dövlətinin gücünü və qüdrətini bütün dünyaya nümayiş etdirdi.

Sonra konfransda hərbçilərə söz verilib. Hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov Birinci və İkinci Qarabağ müharibələri dövrünü müqayisəli təhlil edib. Ordunun başında güclü liderin, qətiyyətli sərkərdənin olması vacibliyindən, bütün əməliyyatların vahid mərkəzdən idarə edilməsi zərurətindən söz açıb. Müstəqil Azərbaycanın Milli Ordusunun yaradılmasında Ulu Öndərin müstəsna xidmətlərini qeyd edib. Vurğulayıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev çox qısa müddətdə Azərbaycan Ordusunu inkişaf etdirərək dünyanın ən güclü 50 ordusu sırasına çatdırıb. Bildirib ki, hazırda "YAŞAT" Fondu və Heydər Əliyev Fondu şəhid və qazi ailələrinə, yaralıların müalicəsinə böyük diqqət yetirirlər.

Tədbirdə Vətən Müharibəsi Qəhrəmanı polkovnik Babək Ələkbərov iftixarla qeyd edib ki, İkinci Qarabağ müharibəsində Ali Baş Komandanın qarşıya qoyduğu vəzifələr yerinə yetirilib. Hər bir Azərbaycan əsgərinin, hər bir Azərbaycan sərhədçisinin arzusu - torpaqlarımızın işğaldan azad olunması və bayrağımızın o bölgələrdəki yüksəkliklərdə dalğalanması təmin edilib. O, yüksək səviyyəli hərbi hazırlığın müharibədə köməyə gəldiyini bildirib, ordunun müasir texnika və silahlarla təchiz olunmasının əhəmiyyətini qeyd edib. Füzuli, Qubadlı, Zəngilan, Hadrut, Cəbrayıl, Şuşa uğrunda gedən döyüşlərdən söz açıb.

Konfransda Dövlət Sərhəd Xidmətinin Şəxsi heyət üzrə Baş idarənin rəisi Qinyaz Qaralov müharibə dövründə bu quruma verilmiş xüsusi tapşırıqlar barədə danışıb. Bir sıra əməliyyatlarda, o cümlədən düşmənin zenit-raket sistemlərinin aşkar edilərək sıradan çıxarılmasında sərhədçilərin xidmətlərini, həmçinin düşmənin 290 hərbi obyektini məhv etdiklərini qeyd edib. Vətənin ərazi bütövlüyü uğrunda, Zəfər naminə canlarından keçən igid sərhədçilərdən söz açıb. 44 günlük Vətən müharibəsində qazanılan Zəfərlə bağlı təbriklərini çatdırıb.

Vətən müharibəsi qazisi, xüsusi təyinatlı gizir Nicat Zalov ailədə vətənpərvər ruhda böyüdükləri üçün iki qardaş hərbçi olmağı seçdiklərini deyib. Aprel döyüşlərində və Vətən müharibəsində iştirakları barədə qeyri-adi epizodları yada salıb. "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş şəhid qardaşı Fəqan Zalovun döyüş yolundan söz açıb, Vətənin bütövlüyü uğrunda şəhadətə ucalmış həmkarlarından danışıb. Düşmən üzərinə əzmlə yürüdüklərini, mətanətlə vuruşduqlarını bildirib. Azərbaycan Prezidentinin ordumuza, şəhid ailələrinə qayğısından, Milli Məclisin deputatlarının diqqət mərkəzində olmalarından razılığını ifadə edib.

Konfransda çıxış edən hərbçilərin hamısı Ali Baş Komandanın əmrinə hər an müntəzir olduqlarını, qalib ordunun əsgəri, zabiti olmaları ilə fəxr etdiklərini vurğulayıblar.

Sonra Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov, komitənin üzvləri Aqil Abbas, Elman Məmmədov, Arzu Nağıyev çıxış edərək Vətən müharibəsinin intellektual, hibrid müharibə olduğu, yalnız döyüş meydanında deyil, diplomatiya və informasiya sahələrində də müharibə getdiyi barədə fikirlərini bölüşüblər. Qələbənin qazanılmasında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyinin, yüksək intellektinin və sərkərdəlik məharətinin mühüm rol oynadığını vurğulayıblar. Çıxışlarda müharibə xronikası ətraflı təhlil olunub, erməni silahlı qüvvələrinin hərbi cinayətlərindən bəhs edilib. Azərbaycan əsgərinin vətənpərvərliyinin döyüşlərdə həlledici rol oynadığı qeyd olunub. Tədbir iştirakçıları şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayıblar.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli konfransın yüksək səviyyədə keçdiyini qeyd edib. Azərbaycan Ordusunun Vətən müharibəsində nümayiş etdirdiyi ruh yüksəkliyinin, qətiyyətin və əzmkarlığın, yüksək mənəvi davranışın son illərdə dünya miqyasında baş verən heç bir müharibədə müşahidə edilmədiyini vurğulayıb. Qeyd edib ki, ordumuz kütləvi qırğınlara yol vermədi, mülki obyektlərə atəş açmadı. Hərbçilərimiz yüksək fiziki keyfiyyətlərlə yanaşı, yüksək mənəvi keyfiyyətlərə də malikdirlər. Azərbaycan əsgəri və zabiti yüksək bilik daşıyıcısıdır, yüksək intellektə malik hərbçidir. Bu da Azərbaycan Ordusunun və xalqının uğurudur.

Komitə sədri Ziyafət Əsgərov bildirib ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordu-xalq birliyimiz əbədidir.

# Türk Şurasının mediaforumunda türkdilli ölkələrin KİV-ləri arasında əməkdaşlıq və həmrəyliyin vacibliyi vurğulanıb







Oktyabrın 22-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) mediaforumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, üç gün davam edəcək tədbirin açılış mərasimində çıxış edən Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun İkinci Qarabağ müharibəsi zamanı sosial media vasitəsilə aparılan böyük mübarizə haqqında danışıb.

Bir il əvvəl Azərbaycan torpaqları hələ işğaldan tam azad edilməmiş, ermənilərin qadağan olunmuş silahlarla Azərbaycanın dinc əhalisini hədəfə aldığını xatırladan F.Altun tarixin bu dönüş nöqtəsində Azərbaycanın yanında olduqlarını xüsusi qeyd edib: "Müharibə dövrü ərzində biz də qardaşım, Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə informasiya cəbhəsində birgə mübarizə apardıq. Nəticədə şanlı Zəfərin əldə olunmasına töhfə vermiş olduq və şükürlər olsun ki, qalib gəldik. Allahdan şəhidlərimizə rəhmət diləyir, bir daha "Qarabağ Azərbaycandır" deyirəm".

Çıxışı zamanı Türk Şurasının təməlində qardaşlığımız, ortaq dəyərlərimiz, keçmişimiz və tariximizin dayandığını ifadə edən Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev keçirilən forumun Türk Şurasına üzv ölkələrin bir çox sahədə olduğu kimi, media sahəsində də həmrəyliyinə böyük töhfə verəcəyinə əminliyini bildirib.

Qırx dörd günlük Vətən müharibəsi dövründə Türkiyənin, eləcə də bir sıra türkdilli dövlətlərin daim Azərbaycanın yanında olduğunu vurğulayan Prezidentin köməkçisi deyib: "İlk növbədə, başda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla, qardaş Türkiyənin Azərbaycanın yanında olmasını, mənəvi, siyasi, diplomatik dəstək verməsini qeyd etmək istərdim. Həmin dövrdə Türkiyənin nəbzi, ürəyi, Azərbaycanla döyünürdü və nəhayət, Azərbaycan xalqının bu həsrətinə son qoyuldu. Eyni zamanda Türk Şurasına üzv ölkələr və başda Şuranın baş katibi olmaqla 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan xalqına öz dəstəklərini əsirgəmədilər. Vətən müharibəsi dövründə iki qardaş ölkənin KİV-i də çiyin-çiyinə mübarizə apardılar".

Qeyd edilib ki, Vətən müharibəsində əldə edilən Zəfərdən sonra hazırda Azərbaycan Qarabağı yenidən qurmaq və türk-İslam sivilizasiyasının mərkəzi bölgəsi kimi Qarabağın tarixi nüfuzunu özünə qaytarmaq əzmindədir. Hikmət Hacıyev əmin olduğunu bildirib ki, qardaş türk ölkələri də bu prosesdə Azərbaycanın yanında olacaq və birgə fəaliyyət göstərəcəklər.

Mediaforuma videomüraciət edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan türk dünyasının rəqəmsal faşizmlə yanaşı, beynəlxalq medianın ikili standartından da əziyyət çəkdiyini bildirib. Xüsusən Azərbaycanın 44 gün davam edən Qarabağ müharibəsi zamanı nümayiş etdirilən ikiüzlü münasibətin məsələnin ölkələrimiz üçün əhəmiyyətini ortaya qoyduğunu vurğulayan Türkiyə Prezidenti medianın müstəqilliyindən və obyektivliyindən danışan beynəlxalq media orqanlarında Ermənistan ordusu tərəfindən Azərbaycanın dinc əhalisini hədəf alan ballistik raket hücumlarının heç vaxt gündəmə gətirilmədiyini qeyd edib.

Rəcəb Tayyib Ərdoğan müraciətində türkdilli ölkələri müstəqil informasiya sistemi və KİV yaratmağa çağırıb.

Forumun ilk günü "Ortaq mədəni gələcək: Türk dünyasında serial-film sektoru", "Türk dünyasının 30-cu ildönümü xüsusi iclası: Köklü keçmiş, güclü gələcək" və "Keçmişdən gələcəyə türk dünyası birliyi" mövzularında panel iclasları keçirilib.

Tədbir bədii hissə ilə davam etdirilib.

Xatırladaq ki, "Köklü keçmiş, güclü gələcək" şüarı ilə keçirilən mediaforumda ölkəmiz Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərlik etdiyi geniş nümayəndə heyəti ilə təmsil olunur.

Foruma Türk Şurasına üzv ölkələr - Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan, habelə müşahidəçi ölkələr Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətindən olan media nümayəndələri, akademiklər, dövlət qurumlarının və özəl təşkilatların yüksəkvəzifəli şəxsləri, sosial media təmsilçiləri, universitet tələbələri olmaqla 500-dən çox iştirakçı qatılıb.

## *Hikmət HACIYEV:* "Türk Şurasının təməlində qardaşlığımız, ortaq dəyərlərimiz, keçmişimiz və tariximiz dayanır"

Biz Türk Şurası olaraq 2009-cu ildə imzalanmış Naxçıvan Sazişi ilə böyük bir yola çıxdıq. Dünyada beynəlxalq təşkilatlar çoxdur, amma xüsusilə qeyd etməliyik ki, Türk Şurası digər beynəlxalq qurumlardan çox fərqlidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türk Şurasının mediaforumunda çıxış edərkən bildirib.

"Beynəlxalq təşkilatlar bəzən siyasi, iqtisadi və digər maraqlar əsasında formalaşır. Təbii ki, bizim təşkilatın da bu kimi maraqları var. Lakin bundan əlavə, Türk Şurasının təməlində, ana fəlsəfəsində məhz bizim qardaşlığımız, ortaq dəyərlərimiz, keçmişimiz və tariximiz dayanır. Türk Şurasının gücü və qüdrəti bundan qaynaqlanır. Türk Şurası dostluğumuzu bir araya gətirərək bizi irəliyə aparan təşkilatdır", - deyə Hikmət Hacıyev vurğulayıb.

Bir neçə həftədən sonra dövlət başçılarının iştirakı ilə Türk Şurasının Zirvə görüşünün keçiriləcəyini diqqətə çatdıran Prezidentin köməkçisi deyib: "Bu sammitdə vacib qərarların qəbul olunması gözlənilir. Bu qərarlar Türk Şurasının beynəlxalq münasibətlərdə daha da güclü mövqeyə malik olmasına imkan yaradacaq. Türk Şurası dedikdə qardaş ölkələrimiz arasında bütün sahələri əhatə edən əməkdaşlıq nəzərdə tutulur. Bu, ilk növbədə, siyasi əməkdaşlığımızdır. Dövlətlərimiz bütün beynəlxalq arenalarda bir-birini qətiyyətlə dəstəkləyir. 2019-cu ildə Bakıda keçirilən Zirvə görüşündə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan öz sədrliyi dövründə əməkdaşlığımızın inkişafına hər sahə üzrə töhfə verməyə davam edəcək. Məmnunluq hissi ilə demək istərdim ki, Azərbaycanın sədrliyi dövründə əməkdaşlığımız daha da genişləndi, qardaş Özbəkistan Türk Şurasının tamhüquqlu üzvü oldu, qardaş Türkmənistan da müşahidəçi statusunda Türk Şurasına qoşuldu. Bu, bizim sıralarımızı daha da genişləndirdi. Eyni zamanda dünya miqyasında Türk Şurası ilə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artmaqdadır".

## *Fahrettin ALTUN:* "İkinci Qarabağ müharibəsində Azərbaycanın haqq səsini media vasitəsilə dünyaya çatdırmağa çalışdıq"

"Hazırda yaşadığımız bu dövr bir sıra amillərə görə xüsusi əhəmiyyətə malikdir. Bir il əvvəl Azərbaycan torpaqları hələ işğaldan tam azad edilməmişdi, ermənilər qadağan olunmuş silahlarla Azərbaycanın dinc əhalisini hədəfə alırdı. Tarixin bu dönüş nöqtəsində Azərbaycanın yanında olduq. Digər tərəfdən də Azərbaycanın haqlı davasını, haqq səsini media vasitəsilə dünyaya çatdırmağa çalışdıq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun Türk Şurasının mediaforumunda çıxışı zamanı ifadə edib.

İkinci Qarabağ müharibəsi zamanı sosial mediada da böyük mübarizənin aparıldığını xatırladan F.Altun deyib: "Müharibə dövrü ərzində biz də qardaşım, Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə informasiya cəbhəsində birgə mübarizə apardıq. Nəticədə şanlı Zəfərin əldə olunmasına töhfə vermiş olduq və şükürlər olsun ki, qalib gəldik. Allahdan şəhidlərimizə rəhmət diləyir, bir daha "Qarabağ Azərbaycandır" deyirəm".

Türk Şurasının ilk toplantısının on il əvvəl keçirildiyini qeyd edin F.Altun bildirib ki, bu gün Türkiyənin qardaşlıq bağlarının daha da gücləndirilməsi baxımından belə bir vacib tədbirə ev sahibliyi etdiyi üçün özünü xoşbəxt sayır.

# Azad olunan rayonlarda yeni inşa edilən hərbi obyektlər istifadəyə verilib

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti azad olunan rayonlarda yeni inşa edilən modul tipli qurğuların, eləcə də əsaslı təmir olunan yerləşmə məntəqələrinin və digər hərbi təyinatlı obyektlərin açılışında iştirak ediblər.

Müdafiə nazirinə məruzə edilib ki, müasir avadanlıq, mebel və inventarla təchiz olunan komplekslər hərbi qulluqçuların bütün zəruri ehtiyaclarını tam təmin edir. Mərkəzi istilik sistemi quraşdırılan bu hərbi hissələrdə silah otağı, yataqxana, yeməkxana, tibb məntəqəsi, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı mövcuddur. Ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar quraşdırılıb.

Həmçinin ətrafda abadlıq işləri aparılıb və müxtəlif növ ağaclar əkilib. Hərbi qulluqçuların asudə vaxtını səmərəli keçirmələri üçün lazımi şərait yaradılıb.

Azad olunan rayonlarda hərbi hissələri isti çörəklə təmin edən çörəkbişirmə sexi, şəxsi heyətin qidalanması üçün müasir avadanlıqla təchiz edilmiş mətbəx və yeməkxanalar da istifadəyə verilib.

Təlim-məşq tapşırıqlarının icrası üçün yeni inşa edilən poliqonun infrastrukturu ilə tanış olan nazirə məlumat verilib ki, burada hərbi qulluqçuların peşəkarlığının daha da yüksəldilməsi məqsədilə ixtisaslı təlimatçılar tərəfindən döyüş şəraitinə tam uyğunlaşdırılan, relyefin tələblərinə cavab verən təlim məşqləri həyata keçiriləcək.

Tikinti işlərinin gedişatını yoxlayan müdafiə nazirinə məruzə olunub ki, hazırda inşası davam etdirilən yaşayış məntəqələrinin və inzibati binaların tikintisinin ən qısa müddətdə yekunlaşması və hərbi qulluqçuların istifadəsinə verilməsi nəzərdə tutulub. Nazir inşaatın keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# Kəlbəcər və Laçın rayonlarında döyüş mövqelərinə baxış keçirilib

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun yüksək dağlıq ərazilərdə xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazirliyin rəhbərliyi Kəlbəcər və Laçın rayonlarında yerləşən bir sıra döyüş mövqelərində olub, burada xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Müdafiə nazirinə məruzə olunub ki, dövlət sərhədində 3400 metrədək hündürlükdə, o cümlədən Kəlbəcər və Laçın rayonlarının digər sahələrində yerləşən döyüş mövqelərində inşa edilən konteynerlərdən ibarət modul tipli yerləşmə məntəqələrində şəxsi heyətin bütün zəruri ehtiyacları qarşılanıb. Bu məntəqələrdə silah otağı, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı, eləcə də istilik sobaları ilə təchiz edilmiş yataqxana mövcuddur. Ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar və günəş panelləri quraşdırılıb.

Bildirilib ki, döyüş növbətçiliyinin gecə və gündüz keyfiyyətli təşkili və aparılması üçün bütün lazımi şərait yaradılıb. Mövqelər texniki müşahidə avadanlıqları ilə təchiz olunub. Komanda-müşahidə məntəqəsindən qarşı tərəfin fəaliyyətini izləyən general-polkovnik Z.Həsənov döyüş növbətçiliyinin təşkili və aparılması ilə bağlı əlavə göstərişlər verib.

Müdafiə naziri hərbi qulluqçular üçün yaradılan şəraiti və onların mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirərək məmnunluğunu ifadə edib. Nazir şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması və döyüş qabiliyyətinin daha da artırılması ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# Azərbaycan Monqolustanla ticarət və iqtisadi əməkdaşlıq haqqında saziş imzalayıb

Oktyabrın 21-də Azərbaycan Respublikası hökuməti və Monqolustan hökuməti arasında Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Saziş imzalanıb.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, sənədi Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Monqolustanın xarici işlər naziri Battsetseq Batmunxiin imzalayıblar. Sənəddə Monqolustanla iqtisadi əməkdaşlıq sahəsində müqavilə-hüquq bazasının təkmilləşdirilməsi, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən sənaye, energetika, kənd təsərrüfatı, ticarət, investisiya, nəqliyyat-tranzit, turizm və sair sahələrdə əlaqələrin genişləndirilməsi, yeni əməkdaşlıq imkanlarının araşdırılması nəzərdə tutulur.

Bununla əlaqədar videoformatda keçirilən tədbirdə iqtisadiyyat naziri Azərbaycan-Monqolustan siyasi-iqtisadi əlaqələrinin inkişaf etdiyini, tərəfdaşlığın inkişafında keçirilən yüksək səviyyəli görüşlərin xüsusi rolunu qeyd edib. Nazir Azərbaycanda həyata keçirilən islahatlar, əlverişli biznes və investisiya mühiti, işğaldan azad edilmiş ərazilərimizin yerli və xarici investisiyalar cəlb edilməklə ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində görülən işlər barədə məlumat verib.

Görüşdə 2030-cu ilədək ölkəmizin sosial-iqtisadi inkişafına dair Milli Prioritetlər diqqətə çatdırılıb, Monqolustan şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə iştiraka dəvət edilib, iş adamları arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Monqolustanın xarici işlər naziri Battsetseq Batmunxiin ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsində maraqlı olduğunu bildirib, iqtisadi əməkdaşlığın inkişafı barədə fikirlərini bölüşüb.

Görüşdə bu gün imzalanan Azərbaycan Respublikası hökuməti ilə Monqolustan hökuməti arasında Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Sazişin qarşılıqlı ticarət və investisiya əlaqələrinin gücləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

# Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistanda prezident seçkilərinin müşahidəsinə qatılıb

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun başçılıq etdiyi geniş nümayəndə heyəti 2021-ci il oktyabrın 24-də Özbəkistan Respublikasında keçiriləcək prezident seçkilərini müşahidə etmək məqsədilə Daşkəndə səfər edib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxocayevin dəvətinə əsasən reallaşan səfər çərçivəsində sədr Məzahir Pənahovun özbəkistanlı həmkarı ilə yanaşı, digər rəsmi şəxslərlə görüşlər keçirməsi, seçkilərlə bağlı müxtəlif istiqamətlərdə əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında müzakirələrin aparılması nəzərdə tutulur.

Azərbaycan Mərkəzi Seçki Komissiyasının digər təmsilçiləri, həmçinin Türk Şurası, ATƏT/DTİHB və MDB-nin tərkibində də beynəlxalq müşahidəçi qismində sözügedən seçkilərin müşahidəsində iştirak edirlər.

MSK nümayəndələri səsvermə günü paytaxt Daşkənddə və bölgələrdə yerləşən seçki məntəqələrində müşahidə aparacaqlar.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# Azad yurdum



*Əvvəli 1-ci səh.*

Artıq Zəngilandayıq...

28 il əvvəl tərk etməyə məcbur olduğumuz, 27 il nisgilini qəlbimizdə ən böyük dərd, ələmi kimi saxladığımız, 1 il öncə isə müzəffər Ali Baş Komandanın "Dəmir Yumruğ"unun qətiyyəti sayəsində BİZİM olan Zəngilanımızdayıq...

Keçirdiyim, keçirdiyimiz duyğuları ifadə etməyə sözmü var?!..

Ağrı ilə sevinc, kədərlə qürur, dağıntıların qüssəsi ilə qayıdışın qüruru - eyni anda, eyni məqamda iki təzadı yaşayırıq...

Məlum oldu ki, artıq dövlətimizin başçısı və birinci xanım da Zəngilana daxil olublar. Rayon ictimaiyyəti ilə görüşdən öncə onlar Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar. Sonra Zəngilanın yeni möhtəşəm ünvanlarından biri olacaq Beynəlxalq Hava Limanının tikintisinə baxıblar. Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə maraqlanıblar. "Azərişıq" ASC-nin Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlqoyma mərasimində və "Azərenerji" ASC-nin "Zəngilan" yarımstansiyasının açılışında iştirak ediblər.

Prezidentin tarixi fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Zəngilan da bu iqtisadi rayonun bir hissəsi kimi özünün yeni dövrünə, əmin-amanlıq, quruculuq həyatına başlayır.

Bu torpaqlar başdan-başa bolluqdur, bərəkətdir. Zəngin təbii sərvətlər qaynağıdır. Nadir flora və fauna incilərinin münbit məkanıdır. Zəngilanın gur çaylarını, şəfalı bulaqlarını, dünyada ikinci, Avropada birinci olan təbii çinar meşələrini və başqa təbii gözəlliklərini saydıqca bitən deyil.

Ötən ilə qədər biz bura - dədə-baba torpağımıza ayaq basa bilmirdik. Əvvəlcə Horadizdən, sonra Cocuq Mərcanlıdan qərib yurdlarımıza həsrətlə boylanırdıq. Buraların bir udum havasını duymaq istəyirdik. Doğma ocaq yerlərimiz bizim üçün xəyala çevrilmişdi. Bu torpaqlarla bağlı xatirələrimizdən təsəlli tapıb bir gün yenidən buralara dönmək ümidi ilə yaşayırdıq.

*İndi isə o xəyallardan Qarabağdakı, Zəngilandakı reallığa gəlmişik. Biz qayıtmışıq. Yenidən əcdadlarımızın uyuduğu torpaqlardayıq.*

*Məhz Prezident İlham Əliyevin sayəsində!*

Çoxumuz illər əvvəl əhd eləmişdik ki, təki torpaqlarımız azad olunsun, heç yol-iriz də istəmərik. Eləcə yaddaşımızdakı izləri tutub, qərib yurdların doğma iyini alıb, piyada gələrik! Ayağımızla, hətta maşınımızla gələ bilmədiyimiz bu yerlərə indi müasir hava limanına eniş edən təyyarələrlə gələ bilirik. Bu əzmə, bu dəyanətə görə də bütün el-oba cənab Prezidentə minnətdardır!

**Qarabağda, Zəngilanda indi gördüklərimiz düşündüklərimizi çox geridə qoydu!**

❖ ❖ ❖

Və nəhayət, möhtərəm Prezidentimiz və hörmətli Mehriban xanım təşrif gətirirlər...

Özləri ilə böyük səmimiyyət, bəsirət, ülviyyət də gətirirlər...

Bu torpaqlara azadlıq, zəfər bəxş edən qüdrətli Lider indi də bizə misilsiz sevinc bəxş edir...

Əl verib hər kəslə tək-tək görüşür...

Şəhid atasının boynun qucaqlayır, kövrəlir...

Hələ Mehriban xanım...

Bütün anaları bağrına basır...

Azərbaycan qadınının bütün nəcibliyi, alicənablığı, müqəddəsliyi məhz Mehriban xanımın simasında, əməlində, şəxsiyyətində təcəssüm edib...

Və bu görüş timsalında biz bunları bir daha aydın görürük...

Ayağımız yurd torpağındadır deyə, çox duyğulu, çox həyəcanlıyıq. Hamı əziz xilaskarımıza minnətdarlığını, sevgisini bildirmək istəyir...





Tələsirik, ürəyimiz sevgili sözlərlə doludur...

Söz çoxdur, ancaq vaxt yoxdur...

Uzun illərdir parlamentdə təmsil etdiyim həmvətənlərim adından söz alıram. "Qədim-qayım Zəngəzurun dilbər guşələrindən olan Zəngilanımıza xoş gəlmisiniz" deyirəm...

"Düzdür, bizi bu qərib yurdlara siz gətirmisiniz. İndi biz də ev yiyəsi kimi ürəklə Sizə "rayonumuza xoş gəlmisiniz!" deyə bilərik. Bu günümüzə şükürlər olsun!" - sözlərimə hamı qoşulur.

Xilaskarımız isə TƏVAZÖKARLIQLA gülümsəyir..

Hamımız çox həyəcanlıyıq. Sevincimiz yerə-göyə sığmır.

O gün böyük Heydər Əliyevin böyük ruhu da şad idi. Zəngilan camaatı Ulu Öndərin xilaskarlığını həmişə minnətdarlıq duyğusu ilə xatırlayır və xatırlayacaq. Əgər 1993-cü ildə o Böyük Tarixi şəxsiyyət olmasaydı, hər yerdən yolu bağlanmış və özünü Araza qərq edən zəngilanlıların da aqibəti Xocalı sakinlərinin faciəli taleyi kimi olacaqdı.

"Heydər Əliyev zəngilanlıların xilaskarı oldu. Siz isə cənab Prezident, Zəngilanın xilaskarı oldunuz!" - minnətdarlıq duyğuları ilə qəlbimdən süzülən bu sözlər, əslində, bütün elimizin təşəkkürü, şükranlıq duası idi...

❖ ❖ ❖

Zəngilan işğal olunanda anasının kürəyindəki şəlləkdə doğma yurdlardan çıxan körpələrin indi 30 yaşı var. Onları vətənpərvər, məsuliyyətli gənc nəsil kimi Prezidentin vətənpərvərlik siyasəti yetişdirdi, formalaşdırdı.

Onların hər biri Azərbaycanın igid əsgəri, zabiti kimi böyüdü. Bu hərbçilər qüdrətli Sərkərdəmizin əmrilə haqq-ədalət uğrunda vuruşub torpaqlarımızı azad etdilər, ölüm-dirim savaşına atıldılar və qalib gəldilər!

*Bəli, Suqovuşandan Şuşayadək zəfər yürüşündə məhz İLHAM ƏLİYEV mübarək adı əsgərlərimizi coşdurdu, qələbəyə köklədi!*

Azərbaycan Ordusu dağlarda, bu yüksəkliklərdə üç rəngli bayrağımızı ucaltdı. Kəndlərimiz, qəsəbələrimiz, şəhərlərimiz bir-birinin ardınca azad edildi. Ruhumuzun şəhəri, mədəniyyət paytaxtımız Şuşamıza zəfər bayrağı sancıldı.

Qəhrəman şəhid oğullarımızın ruhu qarşısında baş əyirik. Ruhları şad olsun!

İlham Əliyev Azərbaycan tarixində çox möcüzələr yaradıb. Çox əlçatmaz arzuları reallığa çevirib. Torpaqlarımızın azadlığı bunların ən misilsizidir.

İndiyədək dünya Azərbaycanın iqtisadi modelini, milli inkişaf modelini, dövlət quruculuğu modelini öyrənir və əxz edir. İndi isə dünyanın ən güclü hərbi mərkəzləri, xarici dövlətlər İlham Əliyevin hərbi modelini öyrənir.

*Prezident möhtəşəm bir tarix yazdı - Zəfər tariximizi.*

*Müzəffər Ali Baş Komandan, eyni zamanda, Azərbaycan dövlətini, Azərbaycan xalqını müzəffər edən Şəxsiyyət kimi Tarixi Möcüzə yaratdı.*

*21-ci əsrin görünməmiş möhtəşəm qələbəsini və möcüzəsini!*

Indi Dövlət-millət-ordu genetik formulu yaranıb və möhkəm təməllər üstündə qurulub.

Millətləşmə, dövlətləşmə hissləri güclənib. Misli görünməyən yekdillik formalaşıb.

*Bütün bunları yaradan isə əlbəttə ki, Xilaskarımızdır!..*

❖ ❖ ❖

Təlatümlü dünyamızın bu vaxtında, müxtəlif siyasi maraqların toqquşduğu zamanda İlham Əliyevin uzaqgörən, cəsarətli siyasəti, mahir diplomatiyası ilə nə qədər çətin bir missiyanı yerinə yetirdiyini hər kəs bilir, görür.

O günlərin həyəcanlı, intizarlı, bir o qədər də sevincli-fərəhli anları həmişə bizimlədir.

İndi adam fikirləşir ki, bu tarixi, şərəfli missiyanızı həyata keçirəndə Prezident neçə 44 min həyəcanlı, narahat anlar yaşayıb.

*Qətiyyətli Sərkərdə kimi Ordumuzun Azadlıq mücadiləsinə rəhbərlik etməklə yanaşı, informasiya müharibəsində də fədakarcasına döyüşüb. Azərbaycanın haqq səsini müxtəlif kommunikasiya kanalları vasitəsilə dünyaya çatdırıb. Erməniləri və havadarlarını informasiya savaşında da məğlub edib.*

Keçirdiyi diplomatik görüşlər, telefon danışıqları, bildiyimiz və bilmədiyimiz, təsəvvür etmədiyimiz təzyiqlərin dəf edilməsi, bütün bunları sinxron, paralel şəkildə və necə ustalıqla yerinə yetirməyi - Onun Liderlik əzmindən irəli gəlir.

Bunların hamısının öhdəsindən ləyaqətlə, əsl qəhrəman kimi gəldi!

Camaatımız "Kişi oğlu kişi!" deməkdə çox haqlıdır!

*Bütün bunların hamısı Zəfər tariximizin qızıl səhifələridir!*

İlham Əliyev bütün çətinliklərə baxmayaraq bunu bacardı. Qələbə tariximizi yazdı. Adını bu tarixə əbədi yazdı. Milli qürurumuzu özümüzə qaytardı.

*Bu qürurun, bu tarixin müəllifi, bu Qələbənin Sərkərdəsi Odur...*

Həyat göstərdi ki, nəyi, necə, nə vaxt etdiyini O, daha dəqiq bilir. O baxımdan hələ indi də deməyəcəkləri var...

Amma biz bilirik ki, O, sabahımız üçün də, elə Qərbi Zəngəzurumuz üçün də nəyi necə edəcəyinizi indidən dəqiq bilir...

Və elə edir də...

*Müstəqil Azərbaycanımızın müzəffər Ali Baş Komandanı!*

*Qarabağın, Şərqi Zəngəzurun tarixi xilaskarı!*

❖ ❖ ❖

Coğrafiya bir taledir. Nə etməli, bizim də taleyimizə belə bir qonşuluq qisməti yazılıb. Dünyanın koronavirus pandemiyası ilə mübarizə apardığı zamanda ondan da betər virusa, xəstəliyə, saxta tarix xəstəliyinə, faşizm mərəzinə yoluxmuş məxluqlarla döyüşmək də bizim taleyimiz imiş.

Amma bilirik ki, bu nadanlar Afrika cəngəlliklərində, yaxud Avstraliya ucqarlarında yaşasaydılar belə, yenə mənfur vərdişlərindən, iddialarından əl çəkməzdilər. Oraları da məkrli savaş meydanına çevirərdilər.

*Bax, onda onlar da görərdilər ki, bu erməni xəstəliyi necə bir bəladır.*

**Həyat göstərdi ki, sən demə, bu məxluqların əlacı və ilacı İlham Əliyevin "Dəmir Yumruğ"unda imiş.**

Möhtəşəm, əzəmətli "Dəmir Yumruq"la erməni faşizminin başı əzildi, region bu bəladan xilas edildi.

İstəksiz, könülsüz, dişsiz ATƏT-in illərdir uzatdığı məsələ cəmi 44 gün içində yoluna qoyuldu. BMT-nin 30 ilə yaxın havada qalmış 4 qətnaməsinin icrasına 44 gün içində nail olundu.

Cənab Prezident bölgədə yeni bir tarixi reallıq yaratdı. Azərbaycanın dəmir qollarını Qarabağa, Zəngəzura və buradan da bütün dünyaya açdı. Biz zəngəzurlular indiyə qədər bu dəmir yollarının nostalgiyası ilə yaşayırdıq. Buralardan keçən qatarlar o dövrün ən işlək sərnişin və yükdaşıma vasitəsi idi.

Xatırlamasam günah olar. Bakı-Noraşen, Bakı-Qafan, Bakı-İrəvan, Bakı-Mincivan... Kimin yadından çıxar?!

**Bu qatarlar arzularımızın qatarı idi.**

*Qurucu Prezident kimi bu dəmir qolları doğma yurdlarımıza açır, Azərbaycanın polad qollarını, əyilməz, bükülməz qollarını dünyaya qovuşdurur...*

*Bir zamanlar hərəkət qrafiki bölgə sakinlərinin zaman-vaxt ölçüsü idi. İndi yeni salınacaq möhtəşəm dəmir yolları ilə gələn bu qatarlar Zəngəzura yeni zaman, yeni ritm və yeni ruh gətirəcək.*

Azad etdiyiniz bu yurdları Prezidentimiz hörmətli Mehriban xanımla dəfələrlə qarış-qarış gəzir. Kəndləri, onların adlarını, qədim toponimləri əzbər bilən, mənasını izah edən, ən əsas üzə çıxardan və tarixi ədaləti bərpa edən milli lider kimi, təkcə bu yurdları yox, bu yurdların itirilən illərini də geri qaytarır Prezident...

*Əminik ki, Prezidentimiz qoşa qanad kimi, çox hörmətli Mehriban xanımla azad yurdlarımızı tezliklə cənnət-məkana çevirəcək...*

Azad edilmiş yurdlarımızda indi böyük bərpa-quruculuq işləri, "ağıllı kənd", "ağıllı şəhər" layihələri tezliklə reallığa çevriləcək...

❖ ❖ ❖

*Yekunda bir deyəcəyim, yazacağım qaldı. Bu fikirlər mənim qəlbimdə çoxdan nisgil bağlamışdı...*

*Bunların bir qismini Xilaskarımıza - Prezidentimizə də bütün zəngilanlıların diləyi kimi çatdırdım...*

*Dinlədi, məmnunluqla, daha doğrusu, əminliklə gülümsədi...*

*Və qarşıya - uca dağlara baxdı...*

*İnamla baxdı...*

*Qalib Komandan kimi baxdı...*

*Millətini və dövlətini aydın sabaha düzgün yolla aparan Müdrik Şəxsiyyət kimi baxdı...*

*Bu baxışlarda nələr yoxdu, İlahi?!.*

***... Uşaq vaxtı tez-tez bu dağlara çıxardıq. Çiyin-çiyinə durmuş təpələrə çay daşları, çınqıllar daşıyıb iri hərflərlə sözlər, şüarlar yazardıq. Bu sözlərin tarix kimi qalmasını istərdik. İndi bu dəmir yolları boyunca, azad olunmuş bu torpaqların köksündə, İlham Əliyevin yaratdığı abadlıq-inkişaf mənzərələri ilə yeni bir tarix yazılır...***

***Bu yeni tarixin sözlərini, zamanın diktə elədiyi şüarlarını zəfər tarixinin şahidləri olan xoşbəxt gənclər əzəmətli qələbə bayrağının dalğalandığı bu yurdlarda müstəqil Azərbaycanın bütövləşmiş xəritəsini dağlara, təpələrə hörəcəklər:***

***Qarabağ Azərbaycandır!***

***Zəngəzur Azərbaycandır!***

***Bu yurdların xilaskarına eşq olsun!***

***Böyük qayıdışımız mübarək, cənab Prezident!***

**İmamverdi İSMAYILOV,**
***Milli Məclisin deputatı***












QARABAĞ
dirçəliş yolundadır










Zəfərin izi ilə

# Azərbaycanın ən böyük tikinti meydanı

## İlham Əliyev yeni Şuşanın baş memarıdır








*Əvvəli 1-ci səh.*

Dövlət başçısı 2021-ci il yanvarın 14-də ilk daxili səfərini də məhz Şuşaya edib.

Həmin səfər zamanı dövlət başçısı şəhərdə icra ediləcək layihələrlə bağlı tapşırıq və tövsiyələrini verdi. Dövlət başçısı üçün bu səfərin yanvarın 14-də gerçəkləşməsinin ayrı rəmzi mənaları da vardı. Düz 39 il əvvəl, 1982-ci ilin 14 yanvar tarixində Şuşada Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin açılışı olmuş və həmin tədbirdə İlham Əliyev də iştirak etmişdi. Bu səfərin İlham Əliyev üçün xüsusi bir tarixi önəmi həm də ondan ibarət idi ki, o, dövlət müstəqilliyinin bərpasından sonra Şuşaya səfər edən ilk Azərbaycan Prezidentidir. İlham Əliyev həm də bu müqəddəs ünvana Şuşanın xilaskarı, 44 günlük müharibənin Müzəffər Ali Baş Komandanı kimi gəlmişdi.

### Şuşa tarixi şöhrətini bərpa edir

Dövlət başçısının tapşırığına əsasən, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma tədbirləri ilə əlaqədar Şuşada da ilkin olaraq infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlakın mövcud vəziyyətinin ilkin qiymətləndirilməsi və inventarlaşdırılması istiqamətində işlər həyata keçirilib. O cümlədən Şuşada infrastrukturun, tikililərin mövcud vəziyyəti - mənzil fondu, binaların dayanıqlığı araşdırılıb. Həmçinin tarix və mədəniyyət abidələrinin öyrənilməsi, onların durumunun təyin edilməsi istiqamətində araşdırmalar aparılıb.

Şuşanın bərpa və yenidənqurulması isə elə şəhərin girişindən bəlli olur. Şəhərə yerin altından yeni kommunikasiya xətləri çəkilir, küçələr təmir olunur, hər tərəfdə ağır texnikalar işləyir, qızğın iş gedir.

Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir bəy Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlət başçısının bu sözləri yanvar ayından reallığa çevrilib. Dövlət başçısının Şuşaya ilk səfəri zamanı şəhərin bərpası istiqamətində birinci addım kimi Natəvanın, Üzeyir bəyin və Bülbülün büstləri əvvəlki yerlərinə qoyulub.

Hazırda büstlərin olduğu ərazidə bərpa işləri gedir, o cümlədən önündən Ali Baş Komandana məruzə edilən icra hakimiyyətinin binası da tamamilə yenidən qurulur. Şuşada onu da gördük ki, cəmi 11 ay əvvəl azad edilməsinə baxmayaraq, işğal dövründə düşmənin erməniləşdirməyə çalışdığı, buna nail olmadıqda isə baxımsız vəziyyətə saldığı şəhərdə xeyli bərpa və yenidənqurma işləri aparılıb.

Vaqifin məqbərəsi artıq əvvəlki görkəmi saxlanılmaqla bərpa edilib, ətrafı abadlaşdırılıb. Bu ilin martında Heydər Əliyev Fondu tərəfindən başlanan bərpa işləri bir neçə aya yekunlaşıb. Məqbərədə təmir-bərpa və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. Vaqifin Şuşadakı evinin yaxınlığındakı büstü də yenidən qurulub. 1992-ci ildə Şuşanın işğalından sonra şəhərdəki digər abidələr kimi büst də vandalizmə məruz qalaraq dağıdılmışdı.

Şuşada baş çəkdiyimiz növbəti ünvan Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün ev-muzeyi oldu. Bura da işğal dövründə vandallığa məruz qalmışdı. Şuşada olarkən bu ünvana da baş çəkdik. Şuşanın məşhur ünvanlarından olan ev-muzey bir neçə ay ərzində nəfis şəkildə bərpa edilib. Bülbülün ev-muzeyinin direktoru Fərhad Hacıbəyli bildirdi ki, bərpa işləri zamanı eyvana çıxan divarlarda suvaq altından daş üzərində yonulmuş ərəb əlifbası ilə iki yazı və günəş simvolunu əks etdirən təsvir aşkar olunub. Yazıların birində Qurandan ayə, digərində isə evin tikilmə tarixi qeyd edilib. Divarın üzərində yeni aşkar olunmuş yazıda göstərilir ki, bina 1788-ci ildə inşa edilib. Bina tipoloji mənsubiyyətinə görə Qarabağ və Azərbaycanın tarixi yaşayış binalarının xüsusiyyətini özündə əks etdirir, otaqların daxili quruluşu Azərbaycanın ənənəvi evlərinə xasdır. Fərhad Hacıbəylinin sözlərinə görə, Bülbülün ev-muzeyinə məxsus həyətyanı sahə ilkin görkəmi saxlanılmaqla bərpa olunub.

Öyrənirik ki, Şuşada bərpa edilən abidələrdən biri də görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlidir. Bu abidə 1985-ci ildə Üzeyir bəy Hacıbəylinin 100 illik yubileyi münasibətilə ucaldılmışdı. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlanıb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb.

Üzeyir bəy Hacıbəylinin Şuşa şəhərində Ermənistanın işğalınadək ev-muzeyi də fəaliyyət göstərib. Ermənilərin vəhşiliyi nəticəsində muzeydə dahi bəstəkarın həyat və yaradıcılığı ilə bağlı 1700 eksponatdan yalnız 100-ə yaxını salamat qalıb, qalanı məhv edilib. Heydər Əliyev Fondu tərəfindən ev-muzeydə aparılacaq işlər üzrə layihə hazırlanıb. Həyata keçiriləcək işlərdən sonra 1992-ci ildə muzeyin Bakıya aparılmış eksponatlarının burada yerləşdirilməsi nəzərdə tutulur.

### Şəhər kompleks şəkildə bərpa olunur

Şəhərdə həyata keçirilən ilk layihələrdən biri "Şuşa" yarımstansiyasının inşasıdır. Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə 73 günə icra olunub ki, bu da nəinki Azərbaycan energetikasında, regionun energetika tarixində rekorddur.

"Xarı Bülbül" hoteli və onun nəzdindəki 48 mənzilli korpus da Şuşanın ilk quruculuq ünvanlarından biridir. Bu cür obyektlərin istifadəyə verilməsi Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynamaqla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən tarixi Şuşa şəhərində icra olunan sosial layihələrin ardıcıl və sürətlə davam etdiyini göstərir.



Şəhərdə həmçinin "Qarabağ" hoteli də istifadəyə verilib. 1980-ci ildə inşa edilən hotelin binası 1992-ci ilin mayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırıb və baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşmüşdü. Prezident İlham Əliyevin tapşırığı ilə bu hoteldə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilib.

Rəsm Qalereyası, o cümlədən Xalçaçılıq Qalereyası da şəhərin bərpa olunan yeni ünvanları sırasında yer alır.

Şuşada həyata keçirilən işlər çərçivəsində Mehmandarovların malikanə kompleksi də bərpa edilir. Malikanə kompleksi Mehmandarovlar ailəsinə məxsusdur və Azərbaycanın tarix-memarlıq abidələrindən biridir. Öyrənirik ki, erməni vandallar işğal dövründə kompleksə daxil olan böyük yaşayış evini tamamilə dağıdıblar. Hazırda kiçik yaşayış evində və kompleksə daxil olan məsciddə bərpa işləri aparılır.

Getdiyimiz ünvanlardan biri də Yuxarı Gövhər ağa məscidi oldu. Vaxtilə şəhərdə 17 məscid olub və mənfur düşmən onların hamısını dağıdıb. Üç məscid yarıdağıdılmış vəziyyətdə idi - Yuxarı və Aşağı Gövhər ağa və Saatlı məscidləri. Şəhərin azad edilməsindən sonra onların da təmirinə başlanılıb. Yuxarı Gövhər ağa məscidində isə bərpa işləri başa çatıb və ziyarətçilərin üzünə açıqdır. Həmçinin bu ilin may ayında Şuşada yeni məscidin də təməli qoyulub.

"Xan qızı" bulağına da baş çəkdik. Şuşa işğaldan azad olunandan qısa müddət sonra yenidən istifadəyə verilən "Xan qızı" bulağı şəhərin məşhur məkanlarından biridir. Xan qızı Xurşidbanu Natəvan təkcə şair kimi deyil, xeyirxahlığı ilə də tanınırdı. Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti "Xan qızı" bulağı adı ilə məşhur idi. Ermənistanın işğalı altında olduğu müddətdə suyu quruyan bulaq yenə də sakinlər və şəhərin qonaqlarının istifadəsindədir.

Şəhərdə həyata keçirilən layihələrdən biri də 1 saylı məktəbin inşasıdır. Qeyd edək ki, 1830-cu ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dünyəvi məktəbin bünövrəsi məhz bu məktəblə qoyulub. 1980-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə bu məktəbin 150 illik yubileyi qeyd olunub. İşğala qədər 1 saylı məktəb kimi fəaliyyət göstərən bu təhsil ocağını da erməni vandalları tamamilə dağıdıblar. Yeni 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Prezidentin Ehtiyat Fondundan Təhsil Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb.

"Otel və Konfrans Mərkəzi" də şəhərdə təməli qoyulan binalardan biridir. Qədim dövrdə Şuşa Böyük İpək yolunun əsas qovşaqlarından biri idi. Avropa və Şərq şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırdı. Bu şəhərlərdən davamlı gəlib-gedən tacirlərin gətirdikləri malları saxlamaq üçün karvansaralar tikilirdi. Karvansara konseptini əsas götürərək, Şuşa şəhərinin mərkəzində, "Zəfər yolu"nun üzərində yerləşəcək 5 ulduzlu "Otel və Konfrans Mərkəzi" müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib.

Şuşada onu da müşahidə etdik ki, artıq ölkəmizin tanınmış market şəbəkələrinin - "Bravo", "Araz" və "Bolmart"ın mağazaları, o cümlədən "Qoç ət" restoranlar şəbəkəsinin restoranı da fəaliyyətə başlayıb. Şəhərdə yeni yaradılmış xidmət obyektlərində çalışanlar əsasən şuşalılardır.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev avqustun 29-da Şuşada səfərdə olarkən ona şəhərin baş planı təqdim olunub. Baş planda şəhərin tarixi əzəmətinin qorunması əsas götürülüb, yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri öz əksini tapıb. Baş planda şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur. Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yol da inşa ediləcək. Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Avqustun 29-da təməli qoyulan 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar da Şuşaya xas memarlıq üslubu ilə tikiləcək.

Şuşanın tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Bərpa-tikinti işləri zamanı milli memarlıq adət-ənənələrimizi özündə əks etdirən ornamental kompozisiyalar və elementlər tətbiq edilir. Həmçinin fasadların üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunur. Burada gördüklərimiz onu deməyə əsas verir ki, mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*










# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Şəhid general Polad Həşimov "Avrasiyaya Hizmət Ödülü"nə layiq görülüb









**Təcavüzkar Ermənistanın ötən il Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlar nəticəsində şəhid olan general Polad Həşimov Türkiyədə fəaliyyət göstərən Avrasiya İqtisadi Əlaqələr Dərnəyi (EkoAvrasiya) tərəfindən "Avrasiyaya Hizmət Ödülü"nə layiq görülüb.**

AZƏRTAC xəbər verir ki, mükafat Ankarada baş tutan təltifetmə mərasimində şəhid generalın anası Səmayə Həşimovaya təqdim olunub.

Mükafatı Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Ankara valisi Vasip Şahin və "EkoAvrasiya"nın təmsilçisi, Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç təqdim ediblər.

Mərasimdə çıxış edən "EkoAvrasiya"nın rəhbəri Hikmət Eren başçılıq etdiyi qurumun fəaliyyətindən danışaraq bildirib ki, dərnəyin əsas fəaliyyəti türk dünyası və Avrasiya ölkələri arasındakı iqtisadi, mədəni və sosial əlaqələri gücləndirmək və bu münasibətlərin inkişafına kömək etməkdir.

Çıxışında "Avrasiyaya Hizmət Ödülü"nün Səmayə Həşimovaya təqdim etməkdən qürur duyduqlarını deyən Hikmət Eren şəhidin ailəsinin də belə bir mükafatı məmnuniyyətlə qarşıladığını vurğulayıb və buna görə şəhid generalın anasına təşəkkürünü ifadə edib.



## Vətən müharibəsi - milli iradənin, milli ruhun və ləyaqətin təntənəsi



**Birlik həm də dirilik deməkdir! Bunu bir il öncə xalqımız şanlı qələbənin sevinclərini yaşayarkən yenidən dünyaya nümayiş etdirdi.**

Təcavüzkar Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı, bütün təbii resurslarını, dini, mədəni abidələrini vəhşicəsinə talan və təhqir etdiyi tarixi Azərbaycan ərazilərinin cəmi 44 günlük Vətən müharibəsi ilə azad edilməsindən bir il ötdü.

27 sentyabr 2020-ci ildə başlayan və Vətən müharibəsi yalnız Ermənistanın işğalına son qoymaqla deyil, həm də xalqımızın erməni faşizmi üzərindəki möhtəşəm qələbəsi ilə başa çatıb tarixə yazıldı.

27 sentyabr həm də Azərbaycan torpaqlarının işğaldan azad edilməsi zamanı qəhrəmanlıq göstərən şəhidlərimizin əziz xatirəsinin anım günü kimi də yaddaşlara həkk edildi.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bununla əlaqədar 27 sentyabr 2021-ci il tarixdə xalqımıza müraciət edərək, bir daha Ermənistanın təcavüzkar siyasətinin ifşası ilə yanaşı, xalq-ordu birliyi və hərbi-diplomatik siyasətin nəticəsinin nəyə qadir olduğunu dünyaya bəyan etdi: "Əziz həmvətənlər! Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində mülki şəxslər, hərbçilər ilk saatlarda həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq, genişmiqyaslı əks-hücumlu əməliyyatlarına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam qələbə qazanmışdır..."

Azərbaycan Prezidenti xalqa müraciətində xatırlatdı ki, keçən il dekabrın 2-də imzaladığı sərəncamla Azərbaycanda 27 sentyabr Anım günü kimi təsis edilmişdir. Dövlət başçısı Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bir daha baş əyib, onlara Allahdan rəhmət dilədiyini bildirdi. Eyni zamanda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməli də qoyuldu. Hələ ötən ilin dekabrında bununla bağlı Azərbaycan Prezidenti sərəncam imzalamışdır. Həmin sərəncama əsasən, Bakı şəhərinin ən gözəl yerlərinin birində İkinci Qarabağ müharibəsi qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılmalıdır.

Şəhidlərimizin müqəddəs və əziz xatirəsinin sentyabrrın 27-də saat 12-də bütün ölkə üzrə bir dəqiqəlik sükutla yad edilməsi də şanlı tariximizin bir anıdır. Müzəffər Ali Baş Komandan vurğuladığı kimi, bu qələbə tarixdə əbədi qalacaq! Ona görə ki, 44 gün ərzində Azərbaycan Silahlı Qüvvələri düşmən ordusunu məhv edərək, öz ərazi bütövlüyünü bərpa edib:

"Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq. Və belə də oldu: biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq: güc topladıq. Bütün gücləri səfərbər etdik. Ordumuzu gücləndirdik. Ölkə iqtisadiyyatını gücləndirdik. Ölkəmizin nüfuzunu qaldırdıq. Və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Və bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır! Və bundan sonra biz müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq!"

Ermənistan müharibə dövründə uşaq, qoca, qadın demədən, dinc əhalimizə qarşı hərbi təxribat törətdi. Buna görə də 100-dən çox mülki soydaşımız erməni faşizminin qurbanı oldu. Şəhər və kəndlərimiz müntəzəm olaraq atəş altında qaldı. Ermənistan, hətta qadağan edilmiş silahlardan - ağ fosforlu bombalardan, ballistik raketlərdən istifadə etdi. Lakin, göründüyü kimi, heç nə bizi dayandıra bilmədi. Azərbaycan xalqı əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi. İllərlə öz tarixi torpaqlarını işğaldan azad etməyə hazırlaşan və o günü gözləyən xalqımızı heç kim, heç nə dayandıra bilməzdi. Azərbaycan Prezidenti İlham Əliyev də müharibə dövründə doğma xalqına dəfələrlə müraciət edərək deyirdi: "...Heç kim, heç nə bizi dayandırmayacaq: biz ədalət savaşına çıxmışıq! Biz ləyaqət savaşına çıxmışıq! Biz milli qürur savaşına çıxmışıq! Biz müqəddəs savaşa çıxmışıq!"

Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq: öldü var, döndü yoxdur! Və Azərbaycan xalqı ordusunun arxasında möhkəm dayanaraq ona əlavə güc verdi. Və günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Ordumuz hər gün irəli gedirdi. Hər gün qələbə qazanırdı. Hər gün yeni uğurlar haqqında məlumatlar alırdıq. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Azərbaycan Silahlı Qüvvələri fədakarlıqla döyüşürdü. Ermənistan ordusunun isə 10 mindən çox fərarisi vardı.

Məhz Müzəffər Ali Baş Komandan da buna görə bildirirdi ki, şəhidlərimizlə, qazilərimizlə, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə - əsgər və zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, fədakarlığı heç vaxt unudulmayacaq.

Bəli, Müzəffər Ali Baş Komandanın xüsusi qeyd etdiyi kimi, 44 günlük Vətən müharibəsi milli iradə, milli ruh və ləyaqətin təntənəsi idi. Biz qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz şəhidlər verərək bu Qələbəni əldə etdik! Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın.

Haqq-ədalət qalib gəldi: azğınlaşmış, harınlaşmış, quduzlaşmış düşmən xalqımızla ordumuzun birliyindən yaranmış "dəmir yumruq" qarşısında diz çökdü, ağ bayraq qaldırdı - təslim oldu! Məcbur oldu ki, noyabrın 9-undan 10-nuna keçən gecə kapitulyasiya aktına imza atsın! Məhz bunun nəticəsində işğalda olan digər şəhər və kəndlərimiz bir güllə atılmadan, şəhid vermədən azad edildi və beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi.

Bu dəfə də Azərbaycan Prezidenti müharibəni hərbi-siyasi yollarla həll etdiyimizi bildirdi. Beləliklə, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı: "Dağlıq Qarabağ" adlı inzibati ərazi Azərbaycan ərazisində mövcud deyil! Və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin. Öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın, biz onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı! Və hər kəs bu sözlərlə hesablaşmalıdır və hesabşalacaqdır".

44 günlük müharibə ərzində bizə ən böyük dəstək verən qardaş Türkiyəyə Anım günündə öz dərin təşəkkürünü bildirən ölkə rəhbəri vurğuladı ki, Türkiyə Respublikası, qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, öz dəstəyini göstərdilər. Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən verilən açıqlamalar bizə çox böyük siyasi dəstək və əlavə güc verdi.

Xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının da ürəyinin müharibə günlərində tarixi Vətənləri ilə bir döyündüyünü deyən Azərbaycan Prezidenti bildirdi ki, onlar hər gün gedən döyüşləri izləyirdilər, bizim uğurlarımıza sevinirdilər: "Onu da bildirməliyəm ki, 44 gün ərzində və ondan sonra, hətta bu günə qədər mən minlərlə məktub alıram, həm Azərbaycan vətəndaşlarından, həm dünya azərbaycanlılarından, həm bizə dost olan müxtəlif ölkələrin vətəndaşlarından dəstək məktubları alıram, həmrəylik məktubları alıram.

Müharibədən bir il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq aləm bizim qələbəmizlə razılaşıb, bunu qəbul edib və bu gün bölgədə və o cümlədən Ermənistan-Azərbaycan münasibətlərində gündəliyi formalaşdıran tərəf Azərbaycandır".

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

## ZƏFƏR gündəliyi
## 23 oktyabr 2020-ci il

Bütün cəbhəboyu döyüşlər davam edir.

Gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edir. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutur.



Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulur, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılır, vacib ərazi və yüksəkliklər azad edilir.

Bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulur. Düşmən qoşunlarının idarə edilməsi praktiki olaraq itirilir. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir.

Məlum olur ki, Ermənistanın Tavuş və Sisian rayonundan Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət döyüşlərə girməkdən imtina edir, fərarilik edərək mövqeləri tərk edirlər.

Bütün cəbhəboyu döyüşlər davam edir.

❖ ❖ ❖

Ermənistan yenə yalan məlumat yayaraq guya Dağlıq Qarabağ ərazisindəki Ağdərə, Xocavənd və Qırmızı Bazar yaşayış məntəqələrinin Azərbaycan Ordusu tərəfindən atəşə tutulmasını iddia edir. Azərbaycan Müdafiə Nazirliyi bu xəbərin heç bir əsasının olmadığını bildirir.

Qeyd edilir ki, tam əksinə, oktyabrın 23-ü gecə ərzində və səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi intensiv atəşə tutulub. Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

❖ ❖ ❖

Gecə 03:00-dan gündüz 12:00 radələrinədək Ermənistan silahlı qüvvələrinə məxsus 2 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilir. Digər 2 PUA isə xüsusi texniki vasitələrlə yerə endirilir.



Həmçinin gün ərzində Ağcabədi rayonu istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus daha bir taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev rəsmi "Tviter" səhifəsində paylaşım edir:

"Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"



İlham Əliyev @azpresident · 43s
Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
114 873 2,799

İlham Əliyev @azpresident · 1m
Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
215 1,076 3,595

Prezidentin növbəti müjdəsi də gecikmir. Dövlət başçısı "Tviter" səhifəsində daha bir paylaşım edir: "Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Düşmənin qüvvə və vasitələri darmadağın edilir.

Müdafiə Nazirliyinin yaydığı videogörüntülərdə hər şey açıq-aydın görünür. Düşmənə məxsus müxtəlif döyüş texnikaları, hərbi avadanlıqlar və yerdəyişmə etməyə hazırlaşan canlı qüvvəsi, zirehli texnikası məhv edilir.

❖ ❖ ❖

Ermənistan tərəfi daha bir uydurma xəbər yayır. Guya İranın hava məkanına ordumuza məxsus kamikadze-dronu daxil olub və bundan sonra qonşu ölkə Azərbaycanın mövqelərini artilleriya atəşinə tutub.



Müdafiə Nazirliyi məlumat yayaraq bunun düşmənin növbəti dezinformasiyası olduğunu bildirir.

Qeyd edilir ki, İran-Azərbaycan dövlət sərhədinin ölkəmizin tam nəzarətinə götürülməsindən təşvişə düşən Ermənistan tərəfi bu cür yalan xəbərlər yaymaqla iki dövlət arasında olan yüksək səviyyəli münasibətlərə xələl gətirməyə cəhd göstərir.

Azərbaycan ilə İran arasında mövcud olan və dərin tarixi köklərə malik siyasi, iqtisadi, dini, mədəni və digər sahələrdə əməkdaşlığımız uğurla inkişaf edir.

Beynəlxalq ictimaiyyət tərəfindən lazımi dəstək ala bilməyən Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan-İran münasibətlərinin uğurlu inkişafından ciddi narahatlıq keçirdiyi üçün çıxış yolunu yalan və böhtan xarakterli məlumatların yayılmasında görür.

❖ ❖ ❖

Cəbhənin Xocavənd və Füzuli istiqamətlərində Ermənistan silahlı qüvvələrinin könüllülərdən ibarət dəstələrinin və döyüş texnikalarının məhv edilməsinin videogörüntüləri yayılır.

Aviasiya zərbələri nəticəsində düşmənin artilleriya bölmələri və komanda məntəqəsi məhv edilir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***



# Hər iş “ASAN”, vətəndaş məmnun

## ◆ Müəllifi İlham Əliyevdir






Əvvəli 1-ci səh.

Vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsini, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsini təmin edən əsas addım isə Azərbaycanın milli brendi sayılan “ASAN xidmət” mərkəzlərinin yaradılmasıdır.

### İntellektual və innovativ milli məhsul

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan “ASAN xidmət” mərkəzləri dövlət başçısının 2012-ci il 13 iyul tarixli 685 nömrəli fərmanı ilə yaradılıb. Fərmanda qeyd olunur ki, “ASAN xidmət” mərkəzlərində xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında, yaşayış yeri üzrə qeydiyyatından asılı olmayaraq, bütün vətəndaşlar üçün və təqvimin bütün günlərində həyata keçirilsin. O cümlədən vətəndaşların bilavasitə, telefon və ya internet vasitəsilə müraciətləri əsasında, səyyar və digər üsullarla xidmətlərin həyata keçirilməsi təmin olunsun.

“ASAN xidmət” mərkəzləri fəaliyyətə başladığı gündən qısa müddət ərzində əhalinin böyük rəğbətini qazanıb, vətəndaş məmnunluğuna yol açıb. Bunu nəzərə alaraq ilk mərkəzin istifadəyə verildiyi 2012-ci il dekabrın 29-dan bugünədək 21 “ASAN xidmət” fəaliyyəti yaradılıb. Onlardan 6-sı Bakı şəhərində, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Bu mərkəzlərdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320-dən çox xidmət göstərilir. “ASAN Kommunal” mərkəzlərində “Azərişıq” ASC, “Azərsu” ASC və “Azəriqaz” İB tərəfindən 55 növ xidmət göstərilir.

Hazırda Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk “ASAN xidmət” mərkəzləri inşa olunur.

Bu günədək “ASAN xidmət” mərkəzlərinə 7 milyon 596 mindən çox vətəndaşın 47 milyondan artıq müraciəti daxil olub. Regionlarda 10 səyyar “ASAN xidmət” avtobusu və səyyar “ASAN qatar” vasitəsilə vətəndaşlara xidmətlər göstərilir. 2013-cü ilin iyun ayından etibarən 2 milyon 448 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

### 3 ildə 377 mindən çox müraciət olunub

Bu dəfə yolumuz İmişli “ASAN Həyat” kompleksinədir. Xatırladaq ki, kompleks Prezident İlham Əliyevin iştirakı ilə 2018-ci il oktyabrın 22-də açılıb. Şəhərin Heydər Əliyev prospektində yerləşən, öz möhtəşəmliyi ilə seçilən kompleksin tikintisinə 2017-ci ildə başlanılıb və 2018-ci ilin oktyabrında başa çatdırılıb. Burada yaradılan İmişli regional “ASAN xidmət” mərkəzi isə 2018-ci il noyabrın 16-dan fəaliyyətə başlayıb. Kompleksin açılışı zamanı Prezident İlham Əliyev mərkəzdə innovativ yeniliklərlə tanış olmuş, robot “Sofiya” ilə söhbət etmişdi. Xatırladaq ki, “Sofiya” dünyada ilk süni intellektli humanoid robotdur.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevin məlumatına görə, bu “ASAN xidmət” mərkəzi İmişli, Saatlı, Biləsuvar, Beyləqan, Zərdab və Füzuli rayonlarında qeydiyyatda olan 624 mindən çox vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərir. Mərkəzin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsiplərinə və vətəndaş rahatlığına hesablanıb. Fəaliyyət göstərdiyi müddət ərzində 377 mindən çox vətəndaş müraciəti qeydə alınıb. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 320-dən çox xidmət həyata keçirilir.

Mərkəzdə vətəndaşlarla da söhbət etdik. Onlardan biri Əhədağa Vəliyev İmişli sakinidir, “ASAN xidmət” mərkəzinə evinə qaz çəkdimək üçün müraciət edib. Onun sözlərinə görə, mərkəzə gəlişi birinci dəfə deyil və hər dəfə nəzakətlə qarşılanıb. Müraciətlərinə isə çevik, şəffaf şəkildə baxılıb. Budəfəki müraciətini də qəbul ediblər və qanunla nəzərdə tutulmuş müddətdə evinə qaz çəkiləcək.

Digər söhbət etdiyimiz vətəndaşlar da xidmətdən məmnun idilər. Kimisi şəxsiyyət vəsiqəsi, kimisi lisenziya almaq, kimisi də sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün gəlmişdi. Bildirdilər ki, “ASAN xidmət”ə müraciət etdikdən sonra evə gülərüz qayıdıblar və binaya daxil olandan işini yekunlaşdırana qədər kollektivin səmimi, gözəl münasibətilə qarşılaşıblar. Hər biri belə bir mərkəzin yaradılmasına və vətəndaşlara göstərilən yüksək xidmətə görə dövlət başçısına minnətdarlıqlarını ifadə edirdi.

Könüllülər “ASAN xidmət”in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. Bu prosesə 28000-dən çox könüllü gənc qoşulub. Bu günə kimi könüllülər tərəfindən 3000-dən çox təlim, 700-dən çox layihə keçirilib və 2700-dən çox könüllü “ASAN Kadr” portalı vasitəsilə işlə təmin olunub.

İmişli “ASAN xidmət” mərkəzində rastlaşdığımız Nurcan Məmmədli cəmi 3 həftədir ki, könüllü kimi fəaliyyətə başlayıb. Onun sözlərinə görə, “ASAN xidmət” mərkəzində yeni olsa da, artıq müəyyən təcrübə toplayıb: “Düşünürəm ki, könüllü kimi fəaliyyət göstərmək gələcək karyeramın ilk uğurlu addımıdır. Mərkəzin kollektivi mehriban və gülərüzdür, ona görə də ilk gündən heç bir çətinliyim olmayıb”.

### Xidmətlərlə zəngin kompleks

İmişli “ASAN Həyat” kompleksi vətəndaş məmnunluğuna yönələn ayrı-ayrı xidmətlərlə zəngindir. Qeyd edək ki, 3 il əvvəl kompleksin açılışı zamanı dövlət başçısının tanış olduğu yeniliklərdən biri də “ASAN peşə” olmuşdu. “ASAN peşə” - ixtisaslı kadrların hazırlanmasını və onların əmək bazarının dəyişən tələblərinə uyğun rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi üçün yaradılıb. Burada gənclərin dərzi, informasiya texnologiyaları və aqrar-texniki peşələrə yiyələnmələri üçün lazımi şəraitə malik sinif otaqları mövcuddur.

Burada 90 nəfər tutumu olan Gənc İstedadlar Teatrı da yaradılıb. Həmçinin vətəndaşların istirahəti üçün nəzərdə tutulmuş “ASAN kafe” fəaliyyət göstərir. Bundan başqa, əməkdaşların asudə vaxtlarını səmərəli keçirməsi üçün oyun avadanlıqları olan guşə də yaradılmışdır. Xidmət üçün mərkəzə gələn vətəndaşların rahatlığını təmin etmək üçün mərkəz daxilində uşaq guşəsi də fəaliyyət göstərir.

Kompleksin həyətində əməkdaşlar üçün nəzərdə tutulmuş paintball meydançası, vətəndaşların asudə vaxtlarının xoş keçirmələri üçün sahəsi 1.5 hektar olan “ASAN park” salınmışdır. Parkın ərazisində fəvvarə, uşaq meydançası, açıq havada konsert meydançası və açıq havada kafe fəaliyyət göstərir. Həmçinin vətəndaşların rahatlığını təmin etmək üçün velosiped və avtomobil dayanacağı da salınıb.

İmişli “ASAN Həyat” kompleksindən xoş təəssüratlarla ayrıldıq. Burada gördüklərimiz bir daha onu göstərdi ki, intellektual və innovativ məhsulumuz olan “ASAN xidmət” hökumət-vətəndaş münasibətlərində özünü ən yüksək səviyyədə doğruldan milli modeldir.

***Rəşad CƏFƏRLİ,***
***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***



# “Korona”, yoxsa qrip?

## Pandemiya başladıqdan sonra insanlar bu iki xəstəliyi bir-biri ilə qarışdırırlar

**Koronavirusa yoluxmanın davam etdiyi hazırkı aylar həm də kəskin respirator virus infeksiyalarının mövsümi artımının daha çox müşahidə edildiyi dövrdür.**

COVID-19 pandemiyası başlayana qədər hər ilin payız, yaz aylarında özündə əzələ ağrısı, temperaturun yüksəlməsi, burun axıntısı, boğaz ağrısı kimi əlamətləri görənlər ilk olaraq, qripə, o cümlədən paraqrip, adenovirus kimi kəskin respirator virus infeksiyalarına yoluxmadan şübhələnərdilər. Lakin pandemiya başladıqdan sonra insanlar çox zaman bu iki xəstəliyi bir-biri ilə qarışıq salırlar. Artıq qeyd edilən simptomları daşıyan hər kəs özünə bu sualı verir - görəsən, koronavirusa, yoxsa qripə yoluxmuşam?

### Fərq nədədir?

Türkiyənin Tibb Elmləri Universitetinin ağciyər xəstəlikləri üzrə mütəxəssisi Berna Eren Kömürcüoğlu deyir ki, əslində, koronavirus hər il qış aylarında qrip epidemiyası yaradan viral infeksiyadır: “Onlardan biri ancaq daha yeni və mutantdır. Bütün bu xəstəliklərin viral bir infrastrukturu var və buna görə də qarşısının alınması tədbirləri bir-birinə bənzəyir”.

Yeri gəlmişkən qeyd edək ki, insanlar koronavirus, qrip və soyuqdəymənin əlamətlərini bir-birinə bənzətsələr də, həkimlər onların bəzi xüsusiyyətlərinə görə fərqləndiyini açıqlayırlar. Məsələn, koronavirusun simptomları bədən temperaturunun yüksəlməsi, nəfəs darlığı, sinə ağrısı, quru öskürək, iştahsızlıq, yorğunluq, dad və qoxu itkisi, burun tutulması, boğaz, baş, əzələ və ya oynaq ağrısı, ishal, ürəkbulanma və ya qusmadır. Bu simptomlar xəstəliyin gedişatına, orqanizmin fərdi xüsusiyyətlərinə görə dəyişə bilər. Qripin simptomları isə temperaturun yüksəlməsi, baş, boğaz, əzələ ağrısı, yorğunluq, öskürək, burun axmasıdır.

Qrip və koronavirusun simptomları arasındakı ən böyük fərq tənəffüs çətinliyidir. COVID-19-a yoluxmuş şəxsin nəfəs almaqda çətinliyi olur. Koronavirus xəstəliyinin başlanğıcı qrip və soyuqdəymə kimidir. Koronavirus və qrip arasındakı digər fərq birincinin ağciyərlərə çox tez təsir etməsidir, lakin qrip virusunun ağciyərlərə enməsi üçün vaxt lazım gəlir. Koronavirus ağciyərlərə sürətlə endiyi üçün insanda pnevmaniya sürətlə yaranır.

İnsanların qrip kimi bildiyi soyuqdəymənin simptomları daha yüngül olur. Qripin başlanğıcı ani olsa da, soyuqdəymənin simptomları tədricən ortaya çıxır. Temperaturun olması qripdə geniş yayılan simptomdur. Temperatur bir neçə gün ərzində 38 dərəcədən yuxarı qalxa bilər, ancaq soyuqdəymə zamanı nadir hallarda qızdırma müşahidə olunur. Qripə yoluxma zamanı öskürək şiddətli olur, soyuqdəymədə isə öskürək nadir hallarda müşahidə edilir. Əgər müşahidə edilərsə də, o, orta dərəcədə olur. Qrip zamanı baş ağrısı çox olur, soyuqdəymədə isə nadir hallarda müşahidə edilir. Əzələ ağrısı qripə yoluxma zamanı soyuqdəymədən daha çox, eyni zamanda, daha güclü olur.

Qripə yoluxma zamanı geniş rast gəlinən və uzun sürən halsızlıq vəziyyəti soyuqdəymə hallarında çox yüngül olur. Burun axması, asqırma və boğaz ağrısı kimi simptomlara soyuqdəymə zamanı daha çox rast gəlinsə də, qripdə bəzi hallarda ortaya çıxır. Həkimlər soyuqlamanı ciddi xəstəlik saymırlar. Soyuqlama zamanı xəstə dərman qəbul etmədən, istirahətə üstünlük verməklə də sağala bilir. Ancaq xəstədə qrip və koronavirus simptomları daha şiddətli olur və bu zaman həkimin təyinatı üzrə müalicəyə ehtiyac yaranır. Başqa bir əhəmiyyətli fərq odur ki, asqırma, burun tutulması və burun axması kimi əlamətlərə koronaviruslu xəstələrdə çox nadir hallarda rast gəlinir. Koronavirus simptomları bəzən mövsümi allergiya simptomları ilə də qarışdırıla bilər. Onların aralarındakı ən böyük fərq koronavirusa yoluxmuş insanların yüksək hərarətə sahib olmasıdır. Lakin mövsümi allergiyası olan insanların belə bir simptomla qarşılaşması gözlənilmir. Mövsümi allergiyası olan insanların tez-tez asqırdığını, gözlərinin sulu olmasını, burnunun tutulduğunu və ya axdığını görürük. Bu simptomların koronavirusa yoluxmuş insanlarda baş vermə ehtimalı çox azdır.

Hazırkı dövrdə ölümlə nəticələnmə riski daha yüksək olduğu üçün insanlar koronavirusa yoluxmadan daha çox ehtiyat edirlər. Lakin həkimlər qripin də simptomlarına əhəmiyyətsiz baxmamağı tövsiyə edirlər. Çünki bu simptomlar immuniteti aşağı, hər hansı bir xroniki xəstəliyi olan insanlarda, xüsusilə yaşlılarda daha ciddi nəticələrə səbəb ola bilər. Qripə yoluxan insanlar, adətən, 1-2 həftə ərzində sağalırlar. Ancaq xəstəlik kəskinləşdikdə bu, bəzilərində sətəlcəm, bronxit, qulaq infeksiyası kimi digər xəstəliklərə də çevrilə və sonda ikinci bir xəstəlik yaranaraq inkişaf edə bilər.

### “Koronavirusa yoluxdumsa, qripə yoluxmaram” deyənlər yanılırlar

Digər tərəfdən, koronavirus kimi qrip də ağır virus hesab edilir, çünki o da sürətlə yayıla, onun da yeni növləri ortaya çıxa bilir. İndiyədək tarixdə üç qrip pandemiyası baş verib ki, bunlar 1918-ci ildə qeydə alınan “İspan qripi”, 1957-ci ildə müşahidə edilən “Asiya qripi” və 1968-ci ildə yayılmış “Honk Kong qripi”dir. Ümumdünya Səhiyyə Təşkilatının koronavirusdan qabaq - 2009-cu ildə elan etdiyi pandemiya da qriplə bağlı olub. A (H1N1) qripinin pandemiyası həmin zaman son 40 ildə ilk dəfə baş verən pandemiya sayılıb. Yeni A (H1N1) qripi virusu ilə törənən qrip əvvəllər heç vaxt insanlar arasında dövr etməyib. Bu virus insanlar arasında daha çox “Donuz qripi” və ya “Kaliforniya qripi” kimi tanınıb. Nəzərə alaq ki, koronavirusla müqayisədə qripdən ölüm nisbəti çox aşağıdır. Buna baxmayaraq, hər il yarım milyondan çox insan qripdən birbaşa və ya dolayı yolla ölür. Buna görə də hazırda qripə də yüngül bir xəstəlik kimi baxmaq lazım deyil. Gələcək aylarda da COVID-19-a yoluxmanın davam edəcəyi proqnozlaşdırıldığı üçün bu xəstəliklərin koronavirusla eyni zamanda yayılmasına yol verilməməsinə çalışmaq lazımdır. Əks halda, bu, daha təhlükəli nəticələrə gətirib çıxarar.

Lakin son zamanlar hər kəsi düşündürən məqamlardan biri də budur - əgər qeyd edilən simptomları özündə müşahidə edən insanların çoxunda COVID-19 xəstəliyi aşkarlanırsa, onda belə çıxır ki, bu halda qripə yoluxma halları azalıb?

Əslində, Ümumdünya Səhiyyə Təşkilatı bu ilin əvvəlində - payız-qış mövsümündə mövsümi qripə yoluxma hallarının rekord səviyyədə azaldığını açıqlamışdı. Qurum bu vəziyyəti COVID-19-un yayılmasının qarşısını almaq üçün dünyada görülən tədbirlər - maska taxmaq, insanların toplaşmasına məhdudlaşdırmanın qoyulması kimi qaydaların tətbiqi ilə izah edib.

Lakin qripə yoluxmanın azalması bu virusun yayılması təhlükəsini yox etməyib. Mütəxəssislər hazırkı pandemiya dövründə koronavirusla qripə yoluxmanın eyni zamanda baş verməsini mümkün sayırlar. Bu halda hər iki xəstəlik daha ağır keçir. Avropa ölkələrində və ABŞ-da belə halların aşkarlandığı zamanlarda klinik mənzərənin daha ağır olduğu öz təsdiqini tapıb.

İngiltərə İctimai Səhiyyə Agentliyi eyni vaxtda həm qripə, həm də koronavirusa yoluxmanın COVID-19-dan ölüm riskini təxminən iki dəfə artırdığını açıqlayıb.

ABŞ alimləri isə soyuq aylarda həm yeni növ koronavirusa, həm də qripə tutulanların sayının artdığını bildirir. Onlar da xəstəxanalardan topladıqları məlumatlar əsasında qripə yoluxmuş koronavirus xəstələrində ölüm nisbətinin iki dəfə artmasını təsdiqləyirlər.

Mütəxəssislər yüksək ölüm nisbətlərinin xüsusilə ciddi risk qrupuna aid olan insanlara şamil edildiyini söyləyirlər. Ancaq bunu da xəbərdar edirlər ki, eyni zamanda həm koronavirusa, həm də qripə yoluxanlar ciddi problemlərlə üzləşə bilərlər. Buna görə də hazırkı vəziyyətdə insanların özünü həm də qripə yoluxmadan qoruması vacibdir.

Həkimlərin qənaətinə görə, “koronavirusa yoluxdumsa, qripə yoluxmaram” deyərək düşünənlər böyük səhv edirlər. Əksinə, virus infeksiyası insanın yuxarı və aşağı tənəffüs yollarının müqavimətini azaldır. Bu səbəbdən tənəffüs yollarında qrip olan xəstənin müqaviməti aşağı düşür. Bu isə onun koronavirusa yoluxduğu zaman aşağı tənəffüs yollarında pnevmaniyanın yaranması imkanlarını artırır.

***İlhamə İSABALAYEVA,***
***“Azərbaycan”***

## Günün idman manşeti

# 50-Cİ QƏLƏBƏ

## Ağdamın “Qarabağ”ı avrokuboklarda növbəti möcüzəsinə imzasını atdı



Əvvəli 1-ci səh.

| KOMANDALAR | O | Q | H | TF | M | X |
|---|---|---|---|---|---|---|
| 1 Bazel | 3 | 2 | 1 | 7-3 | 0 | 7 |
| 2 Qarabağ | 3 | 2 | 1 | 6-2 | 0 | 7 |
| 3 Kayrat | 3 | 0 | 1 | 3-6 | 2 | 1 |
| 4 Omoniya | 3 | 0 | 1 | 2-7 | 2 | 1 |

### İlk hissədə tutmayan plan

Matçın gərgin mübarizə şəraitində keçəcəyi gözlənilən idi. Qarşılaşmanın ilk dəqiqələrindən etibarən qonaqlar meydançanın “Qarabağ”a aid hissəsində pressinq tətbiq edərək ağdamlıların oyun qurmasına mane oldular. Bir sözlə, təmsilçimiz müdafiədən topla çıxaraq oyun qurmaqda çətinlik çəkirdi. Mərkəz müdafiəçiləri Medina və Maksim Medvedevin topu oyuna daxil etmədə problem yaşadıqlarından dayaq yarımmüdafiəçilər Qara Qarayev və Patrik Andrade daha çox geriyə gələrək 3-cü mərkəz müdafiəçi funskiyasını yerinə yetirdilər. Bu da mərkəzdə boş zonalar yaratmaqla yanaşı, itirilən hər topun ağdamlıların qapısı qarşısında təhlükəli epizodlar yaranmasına səbəb oldu. Belə epiozadlardan birində müdafiənin arxasına atılan ötürmədən sonra rəqib komanda penalti qazandı. Nəticədə zərbəni dəqiq yerinə yetirən Kante qonaqları hesabda irəli çıxardı.

Buraxılan qoldan sonra hücumların daha çox cinahlardan qurulmasına önəm verən Qurban Qurbanovun komandasının oyun planı istədiyi kimi alınmadı. Ağdamlılar qurulan hücumlarda topun sürətini artıra bilmədilər. “Kayrat”ın tətbiq etdiyi təzyiq “Qarabağ”ın meydançada 1-ci və 2-ci zonadakı oyunçuları arasında əlaqəni kəsdi. Nəticədə 3-cü zonada yer alan futbolçular məcbur olaraq həm müdafiə olunmada, həm də topu alaraq hücumların qurulmasında səy göstərdiklərinə görə meydançanın rəqibə aid hissəsində çoxala bilmədilər.

### Berdıyevin müdafiə futbolu necə yarıldı?

“Kayrat”ın baş məşqçisi Kurban Berdıyevin çalışdırdığı komandalar həmişə müdafiə taktikası, rəqibə boş zona verməmək, əks-hücum zamanı, əsasən, irəlidəki bir-iki futbolçunun fərdi keyfiyyətlərinə hesablanan oyun planı ilə yadda qalıb. Rəqibləri nə oynamağa, nə də oynatmağa qoyurlar. Bunun öhdəsindən gəlmək üçün isə mütləq həm toplu, həm də topsuz oyunda hazırlıqlı, ötürmələrdə daha sürətli olmaq lazımdır.

Fasilədən sonra “Kayrat” topu Ağdam təmsilçisinə verərək daha çox qaçmağa başladı. “Qarabağ” isə müdafiə xəttini daha çox meydançanın mərkəzinə çəkərək rəqibə boş zona yaratmadı. Vaxt ötdükcə komandamız rəqibə qarşı üstünlük qurmağa başladı. Qurban Qurbanovun oyun planı meydançada tətbiq edildi. Abdulla Zubirin tez-tez cinahları dəyişməsi “Kayrat”ın müdafiə xəttində balansın pozulmasına səbəb oldu.

Əlavə edək ki, müdafiənin mərkəzində daha sayıq görünən Qazaxıstan təmsilçisi cinahlarda heç də uğurlu deyildi. Çünki sağ və ya sol cinah müdafiəçiləri hücuma qoşularkən itirilən toplardan sonra geriyə qayıtmada ciddi problem yaşadı. Belə ki, hücumda çoxalarkən, müdafiə olunmaqda say baxımından geri qalan “Kayrat” matçın son 20 dəqiqəlik hissəsində qapısı qarşısında təhlükəli epizodlar yaşadı. Xüsusilə cinah ötürmələrinə üstünlük verən komandamız ikili mübarizələrdə də Qazaxıstan klubundan daha güclü idi. Qurulan hücumlardan sonra geri qayıdan topların hamısına “Qarabağ” futbolçuları yiyələndilər. Bir sözlə, Ağdam komandası meydançanın bütün zonalarında sona qədər mübarizə apardı. Yekunda, Ramil Şeydayevin və Abbas Hüseynovun vurduqları qollar sayəsində “Qarabağ” qalib gələrək pley-off mərhələsi üçün çox önəmli bir imkan əldə etdi.

Qrupun digər matçında isə İsveçrə “Bazel”i evdə Kipr “Omoniya”sını qəbul edib. Matç meydan sahiblərinin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.

- “Qarabağ” avrokuboklarda 50-ci qələbəsini qazandı.
- 1976-cı ildə “Kayrat” SSRİ çempionatı 1-ci liqasının qalibi, “Neftçi” isə ikinci olaraq güclülər dəstəsinə vəsiqə qazanıblar. O vaxt Bakı komandasının məhz Ağdam əsilli hücumçusu Elbrus Abbasov 28 qolla turnirin bombardiri olub.
- “Qarabağ” və “Kayrat”ın mübarizəsindən əvvəl bu klubların baş məşqçiləri Qurban Qurbanov və Kurban Berdıyev 2002-ci ildə Rusiya çempionatı 1-ci divizionu çərçivəsində iki dəfə üz-üzə gəliblər. O vaxt Qurbanov Voronej “Fakel”inin hücumçusu, Berdıyev isə Kazan “Rubin”inin baş məşqçisi olub. Hər iki qarşılaşmada həmyerlimizin komandası eyni 0:2 hesabı ilə uduzub.
- “Qarabağ”ın qapıçı məşqçisi Elxan Həsənov vaxtilə futbolçu kimi “Kayrat”a qarşı çıxış edib. O, 1988-1990-cı illərdə SSRİ çempionatı və digər yarışlar çərçivəsində Almatı klubu ilə, ümumilikdə, 7 oyunda “Neftçi”nin qapısını qoruyub.
- Qarşılaşmadan öncə koronavirus xəstəliyindən dünyasını dəyişən telejurnalist Elnur Əşrəfoğlunun xatirəsi anılıb.

***E.CƏFƏROV,***
***“Azərbaycan”***





# Mədəniyyət





● Milli sərvətimiz

**İkinci Dünya müharibəsi başa çatdıqdan sonra, 1945-ci ilin 1-16 noyabrında Londonda BMT-nin təhsil və mədəniyyət təşkilatının yaradılması üzrə konfransı keçirilib. Fransa və Böyük Britaniyanın təklifinə əsasən, nümayəndələr dünyanın həqiqi mədəniyyətini yarada biləcək qurum barədə qərar qəbul ediblər. 1945-ci il noyabrın 16-da 37 dövlətin iştirakı ilə BMT-nin elm, təhsil və mədəniyyət, informasiya və kommunikasiya üzrə ixtisaslaşdırılmış təsisatı olan UNESCO-nun yaranmasını təsdiq edən nizamnaməsi imzalanıb.**




# Dəyərlərdən gələn işıq

## Azərbaycanın mədəniyyət inciləri UNESCO-nun nadir əsərləri siyahısında layiqli yer tutur

UNESCO-nun əsas məqsədi irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək, qanunvericiliyi və ədaləti, insanın əsas hüquq və azadlıqlarını təmin etməkdir. Bu, 20 üzv dövlətdən ibarət qurum 1946-cı ilin 4 noyabrında rəsmi fəaliyyətə başlayıb. Hazırda 195 ölkə və 10 assosiativ üzvdən ibarətdir.

Ölkəmiz bu təşkilata 3 iyun 1992-ci ildə üzv qəbul edilib. Üzvlüyə qəbul edildikdən sonra UNESCO ilə qarşılıqlı əməkdaşlığın təşkil və təmin edilməsi məqsədilə dövlətimiz tərəfindən zəruri normativ hüquqi baza yaradılıb. Hazırda Azərbaycan bu konvensiyanın fəal iştirakçısıdır. İldən-ilə Azərbaycan-UNESCO əlaqələri xeyli genişlənməkdədir.

UNESCO tarixinin daha bir əlamətdar hadisəsi Parisdəki qərargah-mənzilində 2003-cü il sentyabrın 29-dan oktyabrın 17-dək keçirilmiş və 35800 üzvün, həmçinin 5 dövlət başçısı və 300 nazirin iştirak etdiyi baş konfransının 32-ci sessiyasının "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanın qəbul edilməsi olub. Sənəddə BMT-nin 1948-ci il "İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi"nə, 1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta, həmçinin UNESCO-nun 1972-ci il "Dünya mədəni və təbii irsin mühafizəsi haqqında Konvensiyası"na, 1989-cu il "Ənənəvi mədəniyyətin və folklorun qorunub saxlanmasına dair Tövsiyəsi"nə, 2001-ci il "Mədəni müxtəliflik haqqında Ümumi Bəyannaməsi"nə istinad edilib.

O dövrdə artıq qeyri-maddi mədəni irsin bir çox formaları unudulmaqda, yaxud məhv olmaqda idi. Onların mühafizəsi, qorunub yaşadılması zərurəti yaranmışdı. Konvensiya qeyri-maddi mədəni irs nümunələrinin beynəlxalq hüquqi qorunması sahəsində qəbul edilmiş ən başlıca sənəd oldu. Sənəddə irsin təzahür formaları müəyyənləşdirildi, eyni zamanda, onun qorunma üsulları dəqiqləşdirildi və dövlətlərin üzərinə öhdəliklər qoydu.

Konvensiyanın məqsədlərinə müvafiq olaraq, yalnız insan hüquqları haqqında mövcud beynəlxalq hüquqi aktlara, eləcə də icmalar, qruplar və ayrı-ayrı şəxslər arasında qarşılıqlı hörmət və sabit inkişaf tələblərinə uyğun gələn qeyri-maddi mədəni irs olaraq diqqətə alınır. Bu irsin daşıyıcısı kimi dil də daxil olmaqla, şifahi ənənələr və ifadələr; ifaçılıq sənətləri; sosial təcrübələr, mərasimlər, bayram tədbirləri; təbiətə və kainata aid bilik və təcrübələr sənəddə əsas götürülən nümunələrdir.

Konvensiyanın 16 və 17-ci maddələrinə əsasən, "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı" və "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irsin Siyahısı" tərtib edilib.

Azərbaycan bu konvensiyaya Prezident İlham Əliyevin 2006-cı il oktyabrın 2-də imzaladığı "Qeyri-maddi mədəni irsin qorunması haqqında" qanuna əsasən qoşulub.

Azərbaycan-UNESCO münasibətlərinin inkişafında və gücləndirilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın xidmətləri təqdirəlayiqdir.

Görülən işlər nəticəsində Azərbaycanın maddi və mənəvi irsinin nümunələri UNESCO-nun nadir əsərləri siyahısında yer alıb. Ötən illər ərzində Azərbaycanın tarixi maddi-mədəni irs nümunələri olan İçərişəhər Tarixi-Memarlıq Qoruğu, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Ümumdünya Maddi-Mədəni İrs Siyahısına, Şəki şəhəri UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına daxil edilib. Həmçinin Azərbaycana aid 13 qeyri-maddi mədəniyyət nümunəsi - Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, Azərbaycanda xalçaçılıq sənəti, tarın hazırlanması və onun ifa edilməsi, Çövkan - Azərbaycanda Qarabağ atı ilə oynanılan ənənəvi oyun, Azərbaycan kəlağayısı, Lahıc misgərlik sənəti, lavaş, Novruz bayramı, kamançanın hazırlanması və onun ifa edilməsi, dolma hazırlama və paylaşma ənənəsi, "Kitabi-Dədə Qorqud", Naxçıvanın ənənəvi qrup rəqsləri - yallı (köçəri, tənzərə) "Qeyri-maddi mədəni irs siyahısı"ndadır.

Ölkəmizin UNESCO ilə ən vacib fəaliyyət istiqamətlərindən biri də erməni işğalçıları tərəfindən dağıdılmış nadir mədəniyyət inciləri haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması, həmin abidələrin, mədəniyyət ocaqlarının bərpası, qarət olunub respublikadan çıxarılmış sənət əsərlərinin qaytarılması məsələləridir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Yeni nəşrlər

# Söz var ki...

## Vətənə, xalqa, torpağa məhəbbət, sevgiyə inam "Həsrətimin yaşı dünya qədərdir" kitabındakı şeirlərin əsas qayəsidir

**Kitab oxumaq, əslində, sadəcə, mütaliəni sevmək deyil. Kitaba bağlılığı filosoflar iki cəhətdən izah ediblər. Birincisi, kitab oxumaq mədəniyyətdir. Hər kəs mütaliyə ilə həm dünyagörüşünü artırır, həm zövqünü formalaşdırır, həm də kamillik zirvəsinə ucalmağın bir yolunu da tapır. İkincisi isə, deyirlər ki, əlində qələm, qəlbində hələ dil açmamış kəlamları olanlar da fitrətdən sözə vurğun yaranırlar. Onlar kitab oxumağa həvəsli, hətta fanat da ola bilirlər.**




Kitabları ilə geniş oxucu auditoriyasında çoxdan imzasını tanıdan və sevdirən müəlliflərdən biri də Milli Məclisin deputatı, şair-publisist Tahir Rzadır. O, bu günlərdə oxucu görüşünə daha bir yeni - "Həsrətimin yaşı dünya qədərdir" kitabı ilə gəlib.

Tahir Rzayev (Tahir Rza) ictimai-siyasi fəaliyyəti ilə yanaşı, uzun illərdir elmi-bədii yaradıcılıqla da məşğuldur. Çoxsaylı məqalələrin, 20-dən artıq kitabın müəllifidir.

Vətənə, xalqa, torpağa məhəbbət, insanlığa hörmət və sədaqət, nadanlığa, zülmə, yalana nifrət, haqqa-ədalətə çağırış şairin şeirlərinin əsas qayəsi və mövzusudur.

Möhtəşəm Qələbəmizdən öncə və sonra qələmə alınmış şeirlərində müəllifin torpaq həsrəti duyulmaqla bərabər, həm də daha böyük zəfərlərimizə inam əks olunur.

Maraqlıdır, özü neçə-neçə kitabın müəllifi olan şair mütaliəni necə, sevirmi? Bu suala Tahir Rzanın cavabı maraqlıdır: "Hər gün mütaliə etmək insanın dünyagörüşünü formalaşdırması baxımından əhəmiyyətlidir. Nəinki gündəlik mətbuatı izləmək, müxtəlif xəbərlərlə tanış olmaq, həm də bədii ədəbiyyat oxumaq normal insanın ənənəvi tələbatıdır. Gündəlik bir neçə qəzeti oxumadan, internetdən, sosial şəbəkələrdən xəbərləri izləmədən keçinə bilmirəm. Maraqlı yazıları təhlil edirəm. Özüm də müntəzəm olaraq bədii-publisist məqalələrlə qəzet səhifələrində çıxış edirəm. Qanun yaradıcılığı, insanlarla görüşlər, müxtəlif tədbirlər vaxtımın çoxunu alsa da, bədii yaradıcılığı, yeni əsərləri mütaliə etməyi də unutmuram. Bu il iki kitabım işıq üzü görüb. Elmi, bədii-publisist məqalələrim çap olunub".

Şairin yeni nəşrinin də seviləcəyi və oxunacağına şübhə yoxdur. Çünki bu kitabda bir-birindən dəyərli, aktuallığı ilə oxucunu daha çox çəkən mövzular lirik düşüncələrlə müşahidə olunur.

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Lirik düşüncələrini incələyən şair

**Azərbaycan ədəbi aləmində qələmi və öz dəst-xəti ilə seçilən söz adamlarından biri kimi tanınan Zeynal Vəfanın "Şirvannəşr"də yeni işıq üzü görən "Dedimmi, demədimmi" kitabında oxucu diqqətini çəkən şeirləri toplanıb.**




"Bu vuruşdan dönən deyil mənim Ordum" şeiri isə Qələbə, Zəfər notları ilə sona çatır.

Kitaba daxil edilən şeirlərindən də hiss olunur ki, Zeynal Vəfada poetik səs ötkəmdir. Bu, şair üçün çox yaxşı bədii keyfiyyətdir.

Şairin şeir leksikonu çox zəngindir ki, bu da poeziyada çox vacibdir. Poeziya qeyri-adi möcüzə payı olduğundan, oxucu onu həm yaxşı, həm də pis tərəfə yoza bilir. Bu müxtəlif yozumlara şairin münasibəti nisbi olur. Lakin məsələ şairin poetik yaradıcılığına obyektiv yanaşmadan gedir. Bu mənada Z.Vəfa sözünə tələbkar və az yazan şairlərimizdəndir. Bu isə gözəl məziyyətdir və poeziyaya hörmətdən irəli gəlir.

Uzun müddət jurnalistika ilə məşğul olan Zeynal Vəfa həm də lirik düşüncələrini bədii sözlə incələyib aforizmlərə çevirən şair kimi də tanınır:

Bu gün hər şey xərclədi, -
Yolçu getdi, yol qaldı, -
Yol yolçunu xərclədi.
İçim dərd tikanlığı,
Biçən olmadı, olmadı.
Şeirimdən "çay" dəmlədim,
İçən olmadı, olmadı...

Sözlərinə neçə-neçə mahnılar bəstələnən söz ustadına ömrünün səksəninci fəslində də yazıb-yaratmaq, oxucu sevgisindən uzaq düşməməyi arzulayırıq.

***"Azərbaycan"***

● Səhnə xadimləri

# Kiçik rolların böyük ifaçısı

## Fazil Salayev xatirələrə gülüş obrazı ilə yazılıb

**Hər dünyaya göz açan tarixə adını yaza bilməyib. Görünür, bunun bir səbəbi var. Çox oxuyub, çox bilmək də hələ dahilik, dühalıq sayılmayıb. Elə tarixi və ədəbi simalarımız olub ki, həyatı məşəqqətlərlə keçib. Acılarına gülən, dərdi dəryalarca olsa da, hərəkət və davranışları ilə insanlara sevinc bəxş edən, ömürlər uzadan sənət fədailərimiz də belələrindən hesab edilib. Adını ədəbiyyat, mədəniyyət, incəsənət tarixinə yazdırmaqla əbədiyyət qazananlardan biri də Fazil Salayevdir.**





Yaşasaydı 90 illik yubileyi 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərlə üst-üstə düşəcəkdi.

Simasından gülüş, təbəssüm süzülən, daxilindən isə daima qara qanlar axan Fazil Salayevin tərcümeyi-halını oxumadan da onun haqqında söz açmaq mümkündür. Çünki, əslində, sənətkarların tərcümeyi-halı onun bədii yaradıcılıq salnaməsidir.

Dünyaya gözünü 1931-ci il sentyabr ayında Bakıda açdı. Sanki həmin gün birinci sinfə tələsənlərin ardınca gülümsəyib deyirdi: "...Dayanın, sizi qabaqlayacam..." Məhz belə də oldu: yeddi yaşını, məktəbə gedəcəyi günü gözləməyə səbri çatmadı. Ağlı kəsər-kəsməz yazmağa başladı. 1935-ci ildə, yeni dörd yaşında olarkən öz şəklinin arxasına latın qrafikası ilə yazdı: "Salayev Fazil İdris oğlu". Bunu görənləri heyrət bürüdü.

Uşaqlığı İkinci Dünya müharibəsi illərinə düşən balaca Fazilin arzusu rəssam olmaq idi. Əli qələm-karandaş tutandan şəkil çəkməyə başlamışdı. Ona görə də orta məktəbi bitirən kimi sənədlərini Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinə verdi. Rəssamlığı bitirdikdən sonra "Azərnəşr"də tərtibatçı-rəssam kimi işlədi də. Lakin həyat bəzən heç də arzuladığın kimi olmur. Zaman, vaxt keçdikcə arzular da dəyişir, əməllər də. Fazil Salayevin də rəssamlıq sənəti ilə dostluğu müvəqqəti oldu.

### "Bizim Toto"nun ekran həyatı

Ailə Fazilin rəssam olacağını düşünürdü. Amma aktyorluq peşəsi bu gənci sehrlədiyi üçün "Azərnəşr"dən uzaqlaşaraq, ovaxtkı Teatr İnstitutunun (indiki ADMİU) aktyorluq fakültəsinə qəbul olundu. Hələ rəssamlıqla məşğul olduğu vaxtlarda o, məşhur italyan aktyoru Totoya oxşamaq istəyirmiş: onun kimi güldürməyi, düşündürməyi, bir sözlə, "bizim Toto" olmağı arzulayırmış...

Teatr İnstitutunu bitirdikdən sonra Fazil Salayev Azərbaycan Akademik Dram Teatrına işə qəbul olunur. 1963-1964-cü illər onun bioqrafiyasına sənətdə yeni dövrün başlanğıcı kimi yazılır. Çünki məhz həmin illərdə görkəmli kinorejissor və dramaturq Həsən Seyidbəyli Fazil Salayevi "Möcüzələr adası" filmində kiçik bir rola çəkir. Fazil Salayev eyni vaxtda Ağarza Quliyevin lentə aldığı "Ulduz" filmində müxbir rolunu oynayır. Bir müddət paralel olaraq teatrda və kinoda çalışır. Bir müddət sonra iş yerini Akademik Dram Teatrından Musiqili Komediya Teatrına dəyişsə də, yaxşı bilirdi ki, nə vaxtsa kino onu teatrdan, sevimli sənət ocağından uzaqlaşdıracaq.

Fazil Salayevin kinoya daha çox meyil göstərməsinin səbəbləri də maraqlı olub. Kinoda ilk rolunu 32 yaşında oynasa da, məhz kinoaktyor kimi məşhurlaşır. Oynadığı şən və ciddi rolun hamısının canına bir incə yumor qatdığını, kinonun dili ilə təqdim etməyin daha asan olduğunu düşünürdü. Ona elə gəlirdi ki, kiçik bir jest, eləcə də qeyri-adi olmayan mizan ekranda teatrdan fərqli, tamam başqa təsir bağışlayır. Sən demə, o, düşüncəsində yanılmırmış.

Fazil Salayevin kinoda uğurları bir-birini "qovurdu". Azərbaycanın kino tarixinə yazılan "777 №-li iş", "Axırıncı aşırım", "Alma almaya bənzər", "Arvadım mənim, uşaqlarım mənim", "Bir cənub şəhərində", "Bizim Cəbiş müəllim", "Dərviş Parisi partladır", "Günlərin bir günü...", "26-lar", "Qanun naminə", "Möcüzələr adası", "Ögey ana", "Rəqiblər", "Sən niyə susursan?", "Şərikli çörək", "Şir evdən getdi", "Ulduz", "Ulduzlar sönmür", "Ürək... Ürək...", "Var olun, qızlar...", "Vulkana doğru", "Yeddi oğul istərəm..." kimi bir-birindən dəyərli filmlərimizdə ən kiçik, epizodik obrazlarla tamaşaçı sevgisi qazanan Fazil Salayev sənət dostlarının da xatirələrində əbədiləşib.

### Tamaşaçı sevgisi, peşəkarların xəsisliklə söylədikləri xoş sözlər və...

Ölməzlik qazanan sənətkarın filmlərdəki qəhrəmanları ilə yanaşı, "Mozalan" satirik kinojurnalında yaratdığı tipajlar da uzun müddət tamaşaçını öz təsiri altında saxlamağı bacarır. Aktyorun metroya baxmağa cəhd göstərən sərxoş, şəhərin gecə səhərədək uğultusundan dinclik tapıb yata bilməyən narahat, toylara dəvət olunmaqdan əldən düşən və axırda şalvarsız qalan, əmək qabaqcılı kimi tez-tez iclaslara, görüşlərə çağırılıb yarıtmaz işçiyə çevrilən qəhrəmanları ilə hər dəfə ekranda görüşməyə imkan tapanda gah gülür, gah halına acıyır, gah da təəssüf hissi keçirirsən.

O, dünyanın hansı nöqtəsində yaşasaydı, şəksiz, şöhrət zirvəsinə yüksələcəkdi, maddi cəhətdən təmin olunacaqdı. Sovetlər dönəmində yaşamış və çalışmış Fazil Salayevin taleyinə isə, təəssüf ki, ancaq biganəlik, diqqətdən kənarda qalmaq yazılmışdı. Buna görə də təltiflərin, fərqləndirmə, həvəsləndirmə üçün verilən mükafatların, çoxsaylı diplomların biri də ona qıyılmadı. Lakin bu, ona dərd olmadı. Qazandığı tamaşaçı sevgisi, bir də peşəkarların, nədənsə, çox xəsisliklə sənəti barədə söylədikləri xoş sözlər oldu.

Səhnədə və kino ekranlarında daima tamaşaçılarına gülüş bəxş edən, sənətinə, istedadına veriləcək qiymətə, xoş sözlərə, yaradıcılıq üçün imkanlara möhtac aktyor fikir-xəyaldan bir anlığa da olsa ayrılmaq üçün içsə də, bu, onun dərdini heç yüngülləşdirmirdi. Bir yandan atasının ölümü, dünyaca sevdiyi anasının xəstələnməsi, eləcə də onu yaxalayan qəfil zob xəstəliyi dərdini birə-beş çoxaltmışdı...

Qırx yeddi yaşında, ömrü yarı yolda qırılan aktyorun doğmaları, neçə-neçə sənət dostları, tanış-bilişləri onunla bağlı qəribə əhvalatları, məzəli söhbətləri danışdıqca sənətkarın yoxluğuna inanmırsan: "...İnanmırsan ki, kiçik qızı Ofelyanın ad günündə, iyunun 19-da son saatlarını xəstəxana divarları arasında keçirən zaman necə sevinmişdi. Sarıqlı boğazını arıtlamağa taqəti olmasa da, axır dəqiqələrində güclə udqunaraq qızına xoşbəxtlik arzulamışdı... Və bir gün sonra, 1978-ci il iyunun 20-də dünyasını dəyişmişdi. Çoxlarının "əhli-kef" saydığı, əslində, bütün vücudunun qəmlə şəlləndiyi gözündən görünən, təkliyə çəkilib özüylə baş-başa qalmaqdan təsəlli tapan Fazil karvanını sürüb beləcə getdi..."

### Heç özü də baş rolları istəməyib...

Əslində, Fazil Salayevin arzuları böyük olub. O, səhnədə də, ekranda da oynamadığı, arzusunda olduğu çox rollar qoyub getdi. Onu görənlər, onunla yaxınlıq edənlər yaxşı bilirlər ki, o, həqiqətən, çox istedadlı, sənətə ürəkdən bağlı bir aktyor idi. Fazil Salayev heç özü də baş rollar istəməyib. Deyirmiş ki, mənə kiçik rollar verin, mən onları böyük rollar səviyyəsinə qaldıra bilərəm. Doğrudan da, elə filmlər var ki, Fazillə yadda qalır. Onun rolları tamaşaçıda, əsl mənada, filmə maraq oyadır. Fazil Salayevin rolları kiçik olsa da, bütövdür. Onun "kiçik" qəhrəmanlarında bir böyüklük duyulur.

Xalq artisti Yaşar Nuri müsahibələrinin birində aktyor haqqında deyirdi: "Fazilin çox böyük istedadı var idi. Nadir hallarda olur ki, aktyorun adını bilmirsən, amma oynadığı obrazlarla tanıyırsan. İndiyə qədər də onun adını bilmirlər, amma obrazlarını tanıyırlar: o, "filan roldakı aktyor" kimi yaddaşlarda qalıb. Heç bir fəxri adı olmayan Salayevin fəxri adı "filan aktyor" idi. "Muskomediya"da bir tamaşada montyoru oynayırdı. Guya çayniki düzəldəndə tok vurur bunu, ölür. Zal onun "ölməyinə" iki dəqiqə əl çalırdı. Fazil hərtərəfli istedad idi, amma bəxt, tale, alın yazısı... Onun "Şərikli çörək" filmində çörək yediyi epizod xəlvət çəkilib. Mahmudbəyov operatoru çağırıb ki, bu kadrı xəlvət çək. Amma yenə də şans... O filmə görə hamı dövlət mükafatı aldı, Fazil almadı..."

Akademik Milli Dram Teatrının aktyoru, Əməkdar artist Əli Nur həmkarı Fazil Salayevlə tanışlığını belə xatırlayır: "Mən tələbə olanda Fazil Salayev "Azdrama"da işləyirdi. O, Allahın möcüzəli, istedadlı aktyoru idi. Fazil "Azdrama"da elə də böyük rollar oynamayıb. Məsələn, "Ölülər"də Cəlalı oynayırdı. Digər tamaşalarda da epizodik rollardaydı. Ancaq qeyri-adi koloritli, duzlu aktyor idi. Nə qədər istedadlı olsa da, onu layiqincə qiymətləndirmədilər. Hətta kateqoriyasını artırmırdılar ki, normal maaş alsın".

Sənətşünaslıq doktoru, professor İsrafil İsrafilov da Fazil Salayev haqqında xatirələrini bölüşüb: "Tofiq Kazımov da onu çox sevirdi, orijinal istedad sahibiydi. Azərbaycan teatrında ikinci belə istedada malik aktyor yox idi. Onun komizmi də orijinaldır, plastikası da. Fazildən sonra o tipdə aktyor yetişməyib. Düzdür, Yaşar Nuri yetişdi, amma o, başqa tip aktyor idi... Uşaq kimi saf və təmiz xarakterli adam olub Fazil Salayev. Hətta o qədər saf adam olub ki, aktyorların bəziləri onunla zarafatlaşırmışlar. Ən yaxın dostları Yaşar Nuri və Səməndər Rzayev olub. Aktrisalardan isə Nəcibə Məlikova onu öz övladı, qardaşı kimi çox istəyib... Fazil "Molla Cəbi" tamaşasında Əliağa Ağayevlə tərəf-müqabili olub. Əliağa Ağayev deyirmiş ki, "Fazil orada elə xırdalıqlar edirdi ki, mən özümü itirmişdim. Onun ifasına valeh olmuşdum, öz rolum yadımdan çıxmışdı..."

Bir vaxtlar televiziya ekranlarında gedən "Komediyalar aləminə səyahət" verilişində tez-tez səhnəciklərdə çıxış edən istedadlı aktyor Fazil Salayev qısa ömür yaşasa da, oynadığı rolları, mimikası və yumor hissi ilə xalqımızın yaddaşında əbədi qaldı. İllər keçsə də, onun yaratdığı rollara və filmlərə maraq azalmayıb, əksinə, Fazil Salayev kimi sənət fədailərinə ehtiyac duyulduğu bu günlərdə daha çox hiss olunur.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***




# Ən qədim paltar köynəkdir, yoxsa don?

**Yaşamın əsas komponentlərindən olan geyim insanı soyuq və istidən, ətrafdakı zərərli təsirlərdən qorumaq üçün vacibdir və onu gündəlik həyatın ayrılmaz parçası edir. Bu da maraqlıdır ki, min illər əvvəl istifadə olunan hər hansı paltarın günümüzə qədər gəlib çıxması necə olub. Bu marağı artıran isə dünyanın ən qədim geyimi - "tarxan"dır.**

İlkin vaxtlarda heyvan dərisindən və ya müxtəlif üsulla ərsəyə gətirilən örtükləri ibtidai insanlar geyim kimi istifadə ediblər. Parçadan hazırlanmış, günümüzdəki paltar anlayışını ifadə edən "tarxan" geyimi 1913-cü ildə Misirdə Tarxan adlanan ərazidəki antik



məzarlıqdan tapılıb. Aşkar edildikdən sonra Londonda yerləşən Petrie Misir Arxeologiya Muzeyinə göndərilib. Burada paltara xüsusi diqqət göstərilməyərək rəflərdən birinə yerləşdirilib. Lakin illər sonra muzeyin yenidən bərpasında qeyri-adiliyi ilə şübhə yaradaraq təkrar araşdırılmasına səbəb olub. Bununla da məlum olub ki, geyim ən qədim parçadan hazırlanıb. Fəqət həmin vaxt libasın dəqiq tarixi qeydə alına bilməyib. 2016-cı ildə Oksford Universitetinin tədqiqatından sonra paltarın 5-5.5 min il əvvələ, yəni eradan əvvəl 3-cü minilliyə aid olduğu təxmin edilib.

"Tarxan" öndən baxarkən V hərfinə bənzər yaxalıqlı kətan paltardır. Onu araşdıran alimlər güman edirlər ki, bu geyim köynək yox, don olub. Aşağı hissələri uzun illər ərzində məhv olduğundan köynəyə bənzər formada qalıb. Digər bir önəmli məqam isə hazırlanan qadın libasının kiməsə özəl olaraq tikildiyidir. Çünki paltarın meydana gəldiyi tarixdə dəqiq bədən ölçüləri anlayışı olmadığından geyimlər hər kəsə yararlı olması üçün olduqca gen hazırlanırdı. Bu köynək isə bir qadının vücud ölçülərinə uyğun formada hazırlanmış dərzi məhsuludur.



## İlk xalça muzeyi Vətənimizdə

**Azərbaycanda tarixən ən geniş yayılmış xalq sənətindən biri xalçaçılıqdır. Dünyanın ilk xalça muzeyi də məhz elə ölkəmizdədir. 1967-ci ildə əsası qoyulan muzeyin ilk yerləşdiyi ərazi Bakının ən qədim tarixi yerlərindən biri olan İçərişəhərdə olub. Muzeyin özünəməxsus ilk binası isə 2014-cü ildə avstriyalı memar Frans Yantsın layihəsi əsasında inşa edilib. Dənizkənarı Milli Parkda yaradılan Azərbaycan Milli Xalça Muzeyinə "milli" statusu 2019-cu ildən verilib.**

Muzeyin daxilində Azərbaycanın müxtəlif regionlarından xüsusi əhəmiyyətli tarixi xalçalar yer alır. Burada olan ən böyük xalça isə 11 metr uzunluğunda "Şeyx Səfi" xalçasıdır. Bu xalçanın əsli Londonda Viktoriya və Albert Muzeyində saxlanılır. Burada olan isə əsl nüsxə əsasında hazırlanmış versiyasıdır. Xalçalar üzərindəki qəliz işləmələrlə və müxtəlif əsərlərin ideyalarını özündə ehtiva etməklə daha çox diqqəti cəlb edir.

Qarabağ xalçalarının əvəzolunmaz dəyərini muzeydə mövcud olan nümunələrdən aydın görmək mümkündür. Burada yalnız xalçalar deyil, həmçinin milli geyimlər, tarixi qablar, zinət əşyaları da sərgilənir. Toxuculuğa maraq göstərənlərin muzeydə təşkil edilən dərslərə qatılaraq faydalanmaq şansları da var.

## 2500 yaşlı xalça

**Qədim dövrlərdə yaşayış yerləri olan mağaralar bir çox çətinlikləri ilə insanları yenilikləri kəşf etməyə sövq edirdi. Onlar soyuq və daş torpağın üstündə yatmamaq üçün ovladıqları heyvanların dəri və xəzlərindən xalça kimi istifadə edirdilər. Zaman keçdikcə isə bunlardan istifadə azaldı və toxunmuş materiallara keçid dövrü başlandı.**



Ən erkən tarixli xalça "pazırıq" adını daşıyır. Bunu keçən əsrin ortalarında rus arxeoloqu Sergey Rudenko Qazaxıstanda Altay dağlarının yaxınlığında aşkar edib. Tədqiqatlar bu xalçanın eradan əvvəl 5-ci əsrə aid olduğunu sübuta yetirib. Qəbirə sızan suyun donması nəticəsində buz bağlayan məzarın daxilində yerləşməsi xalçanın bu günə qədər gəlib çatmasının əsas səbəbidir. Xalça olduqca böyük sənətkarlıqla hazırlanıb.

Xalçanın mərkəzi hissəsi 24 çarpaz formalı fiqurla əhatə olunub. Hər bir hissənin daxili 4 elementlə bəzədilib. Mərkəzi sahə marallarla haşiyələnib. Ən kənar hissədə isə atlılar yer alıb. Xalçanın toxunduğu əsas rənglər sarı, qırmızı və mavi saplardan ibarət olub. Bu rənglər isə təbii formada bitkilərdən və sairədən əldə edilib. Lakin görünüşdən aydın olur ki, rənglər solaraq nisbətən başqa çalarları özündə əks etdirir. Yun materiallı xalça "türk düyünü" üsulu ilə hazırlandığı üçün sıx toxunuşlu və xovludur.

Xalçanın hansı xalqa məxsusluğu da maraqlıdır. Bir çox xalqlar belə dəyərli nümunəni özününküləşdirmək üçün mübarizə aparırlar. Əslində, "pazırıq" xalçasında olan naxışlar, rəmzlər onun türklərə aid olmasını göstərir. 24 fiqurun 24 oğuz boyundan xəbər verməsi, toxunma üsulu və digər simvollardakı mənalar bunun doğruluğuna əsasdır. Bu tarixi xalça Ermitaj Muzeyində sərgilənir.

## Geyim dünyasının ilk brendləri

### *"Brooks Brothers"*




Kapitalist yaşamının əsasını qoyan, təbəqələşməni daha da sürətləndirən vasitələrdən biri də geyim markalarıdır. Dünyanın ilk geyim brendi "Brooks Brothers"dir. Hazır geyim təklif edən bu ilk firmanın əsası 1818-ci ildə qoyulub. Henri və kiçik qardaşı Devid Bruks mağazanı Nyu Yorkun Manhattan şəhərində açaraq geyim satışlarını həyata keçirib. Həmin zaman brend "H & D.H Brooks and Co." adı altında fəaliyyət göstərib. 1833-cü ildə Henri öldükdən sonra mağaza oğullarına miras qalıb. 1850-ci ildən etibarən brend "Brooks Brothers" adı ilə tanınıb.

Markanın loqosunda lentlə asılmış qoyun təsvir olunub. Bu simvolun tarixi qədim Yunanıstana gedib çıxır. Əfsanəyə görə, Ceysn və Arqonats qızıl yun əldə etmək üçün hər cür qurban verməyə hazır idilər. Bununla da onların uğurları əfsanəyə çevrilmişdi. Loqodakı ideya da buradan qaynaqlanır.

Firma kostyumlar satışa çıxararaq "tikdirməyə vaxtı olmayanlar üçün hazır kostyumlar" şüarı ilə yeni tendensiyaya başlamışdı. Ümumi fəaliyyəti boyunca Amerikanın 40 prezidentini geyimlə təmin etmişdi. ABŞ-ın sabiq prezidenti Abraham Linkoln sui-qəsd nəticəsində ölən zaman üzərində brendin kostyum və paltosu var idi. Həmin vaxtdan 2003-cü ilə qədər mağazada kostyum satışına rast gəlinmədi.

Amerikada Vətəndaş müharibəsi zamanı markanın nüfuzu sarsılmışdı. Belə ki, əsgərlər üçün forma hazırlayan brendin istehsal etdiyi paltarlar keyfiyyətsiz olmuşdu. Formalar ucuz parçalardan hazırlanmış, yağış və küləyə məruz qaldıqda parçalanmışdı. Lakin arzuolunmaz bu vəziyyət kompensasiya edilmiş, yenidən yüksəkkeyfiyyətli formalar tikilmişdi.

Hazırda ən qocaman brend olan "Brooks Brothers" kişi, qadın və uşaqlara aid hər cür geyimləri təqdim edir. Eyni zamanda bir çox məşhurların, kino ulduzu və aparıcıların da əvəzedilməzidir.

### *"Hermes"*

Xəyallarda canlanan dəbdəbəli geyimlərin olduğu Paris küçələri bütün dünyanı özünə cəlb etməsi ilə seçilir. Yaranma tarixinə görə geyim brendlərinin ilk ikinci pilləsində yer alan "Hermes" bir fransız markasıdır. 1837-ci ildə markanın əsası Tierri Hermes tərəfindən qoyulub. Əvvəlcə yalnız atelyedən ibarət olan moda evi sonralar Parisdə yerləşən mağazaya köçürülüb. Avropa xalqını heyran edən "Hermes" daha çox dəridən hazırladığı məhsullarla fərqlənirdi.




Firmanın nüfuzunu daha çox artıran Emile Hermesin geyim dünyasına gətirdiyi yenilik oldu. Bir çox geyimlərdə, çantalarda yer alan zəncirbəndi ilk dəfə bu brend istifadə etmişdi. XX əsrin ortalarından etibarən markanın libasları ilə bəzənən müştərilərinin görünüşlərini tamamlamaq üçün zərgərlik məmulatları, saatlar və ayaqqabılar da təqdim edilmişdi.

Markanın loqosunda at arabasına bağlı at və onun qarşısında dayanan bir kişi təsvir edilib. Fransız rəssam Alfred Drunun "Bağlanan araba, gözləyən bəy" adlı əsərindən ilhamlanaraq hazırlanıb. Narıncı rəng isə təsadüfən seçilib. Çatdırılma qutuları hazırlanarkən krem və qızılı tonlar tükəndiyi üçün qutulara narıncı rəng çəkilib. Bununla da narıncı rəng markanın əsas imzasına çevrilib.

Bu gün "Hermes" alıcılarına kişi və qadına dair şahanə geyimlər, çantalar, cəvahirat və saatlar, ətirlər, müxtəlif aksesuarlarla xidmət göstərir. Bu markanın dünyanın 45 ölkəsində 306 filialı fəaliyyətdədir.

## Məhkəməyə qədər yol alan ixtira

**Tikiş üçün başlıca komponent olan iynə ilə insanın tanışlığı 20 min il bundan öncə başlayıb. İlk iynələr heyvan sümüklərindən, buynuzlarından hazırlanıb. Saplar isə heyvan əzələlərindən əldə edilib. Dəmir iynələrin mövcudluğu 14-cü əsrdən etibarən başlayıb. İynə və sapın təkmilləşərək bir araya gəlməsi daha çox tikiş prosesini sürətləndirib, keyfiyyətini artırıb.**



Tikiş maşını ideyasını meydana çıxarıb onu patentləşdirən ilk şəxs isə Çarlz Vayzental olub. Bundan bir qədər sonra 1790-cı ildə Tomas Saint ilk tikiş maşınını ərsəyə gətirib. Lakin o, ixtirasını uğurla tanıtmayıb və maşının satışı həyata keçirilməyib. Həmin zamanda bu vasitə ilə dəri və kətan materiallardan istifadə nəzərdə tutulurmuş. Tikiləcək parçaların daxilində sadə tikişlər atmaq üçün zəncirvari tikiş üsulu mexanizmi tətbiq olunmuşdu. Beləliklə, bu tikiş maşını həmin dövrə görə inkişaf etmiş konsepsiya sayılır. Növbəti illərdə Tomas Saintin kağız üzərindəki prototipinə uyğun nümunələr hazırlanıb.

Sonralar bir çox təşəbbüslər tikiş maşını üzərində yeni fikirləri ortaya çıxardı. Lakin bu yolda bəziləri uğursuz olmuş və çətinliklərlə üzləşmişdilər. Hətta maşından istifadə Bartelemey Timonierin canı bahasına başa gəlmişdi. Belə ki, o, 1830-cu ildə ixtira etdiyi maşından 80 ədəd hazırlayaraq fabrik yaratmışdı. Bundan xəbərdar olan dərzilər işlərinin əllərindən alınması qorxusuna düşərək fabrikə hücum edib tikiş maşınlarını sındırmışdılar. Bu hadisədən B.Timonier canını güclə xilas edə bilmişdi.

Maşının əllə hərəkətə gətirilməsi mexanizminə son qoyub pedallı versiyanı yaradan İsak Meritdir. Lakin digər bir ixtiraçı olan Elias Hau onun bir çox detalları oğurladığını iddia edərək məhkəməyə vermişdi. Məhkəməni Elias Hau qazanaraq paydan mənfəət əldə etmişdi. Əlqərəz, müxtəlif illərdə olan bu icadlar "əsl ixtiraçı kimdir?" sualına cavab tapmaqda çətinlik yaradır. Lakin bəllidir ki, bu inkişaf yolu hazırda tikiş mədəniyyətinə çıraqlı cığır olub.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***




## Elektrikli avtomobillər üçün akkumulyator

**"Təbiət dostu" kimi qəbul edilən elektrikli avtomobillər zaman keçdikcə daha çox sürücünün rəğbətini qazanır. Onun yeganə mənfi cəhəti gec enerji yığmasıdır. Lakin mütəxəssislər buna da çarə tapıblar.**

Amerikanın Pensilvaniya Universitetinin tədqiqatçıları 10 dəqiqə ərzində elektrik enerjisi yığa bilən akkumulyator hazırlayıblar. Amma sadə litium-ion batareyalarının bu cür sürətlə doldurulması onların tezliklə sıradan çıxmasına səbəb olurdu. Belə ki, enerji bir elektroddan digərinə aşağı temperaturda ötürülür.

Buna da çarə tapıldı. Yeni akkumulyatorlarda nazik nikel folqası istifadə edilərək 30



saniyədən az müddətdə qızdırılan sistem yaradıldı. Batareyanın doldurulmasından sonra lazım olacaq sürətli soyutma avtomobildə hazırlanmış sistem vasitəsi ilə ediləcək.

## Bilərzik-smartfon



**Cənubi Koreyanın "Samsung" şirkətinin mütəxəssisləri smartfon və "ağıllı" saatı birləşdirən cihaz üzərində çalışırlar.**

Bu cihazı həm mobil telefon, həm də biləyə dolayaraq "ağıllı" saat kimi istifadə etmək mümkün olacaq. Yığılmış vəziyyətdə telefonun yuxarı hissəsi məlumatları göstərir və smartfon akkumulyatorundan enerji toplayır.

Bilərzik "bluetooth" vasitəsilə məlumat mübadiləsi də edə biləcək.

Şirkətin mühəndisləri tərəfindən yaradılan qurğu quruluşuna görə "Galaxy Note" seriyalı smartfonlarla işləyən və telefonun korpusunun aşağı hissəsində yerləşdirilən "S-Pen" rəqəmli qələmi xatırladır.

## "Windows 11" gəlir

**"Microsoft" şirkəti "Windows 11" əməliyyat sistemini təqdim edib. Kompüterlərində daha öncədən "Windows 10" əməliyyatı mövcud olan istifadəçilər yeni versiyanı rahat yükləyə biləcəklər, digərləri isə hələlik gözləməli olacaqlar.**




"Windows 11"in sələflərindən fərqi yalnız yeni dizaynı deyil, həm də yüksəkkeyfiyyət və təhlükəsizliyə malik olmasıdır.

Proqramı yükləmək üçün kompüter müəyyən standartlara cavab verməlidir. Lakin bu tələblər o qədər də yüksək deyil. Cihazın uyğunluğunu yoxlamaq üçün ilk olaraq "PC Health Check" proqramı yüklənməlidir.

"Windows 11" ilə birlikdə "Microsoft Store" da yenilənib. Bu əməliyyat sistemində videooyunlar HDR rejimində fəaliyyət göstərəcək.

## Transplantasiya üçün dronlar

**Bəzi inkişaf etmiş ölkələrdə artıq dronlardan transplantasiya əməliyyatları zamanı orqanların daşınmasında istifadə olunur.**



Bu "kiçik təyyarələr" xüsusi olaraq hazırlanır. Məlumdur ki, köçürülmə üçün nəzərdə tutulmuş orqanlar xüsusi şəraitdə saxlanılmalı və müəyyən vaxt ərzində təyinat nöqtəsinə çatdırılmalıdır. Əks halda onlar istifadəyə yararsız hala düşür. Xüsusi hazırlanmış tibbi dronlar məhz bu standartlara cavab verir, termometr və taymerlərlə təchiz olunur, üstəlik, bütün bunlar mütəxəssislər tərəfindən uzaq məsafədən tənzimlənir.

Tibbi dronlar sınaqlardan uğurla keçib. İlk transplantasiya şəhərdaxili, ikincisi isə şəhərlərarası olub.

## "Nokia 6310" geri dönür

**Dövrünün ən çox istifadə edilən telefonlarından olan "Nokia 6310"un 20 illik yubileyidir. Bu münasibətlə şirkət onun yeni versiyasını hazırlayıb. Bəs yeni modelin sələfindən fərqi nədir?**



Ən dözümlü mobil telefon hesab edilən "Nokia 6310"un yeni versiyası görünüş etibarilə əvvəlkinə bənzəməklə müasir tələblərə də cavab verir. Yeni telefon rəngli ekrana, 320x240 meqapiksel kameraya, uzunömürlü batareyaya, internet və ən əsası isə klassik "İlan" oyununa malikdir.

## "Lucy"nin 12 illik missiyası

**ABŞ Milli Aviasiya və Kosmos İdarəsi (NASA) "Lucy" kosmik gəmisini Yupiter ətrafındakı asteroidləri öyrənmək üçün kosmosa göndərib.**




Bu missiya 12 il davam edəcək. Florida əyalətindəki stansiyadan "Atlas V" raketi ilə buraxılan gəmi ilk vaxtlar Yupiterdə yerləşən 8 asteroidi araşdıracaq.

NASA-nın "Lucy" ilə bağlı planları bununla bitmir. Onun növbəti səfərinin Günəş sisteminə olacağı nəzərdə tutulur.

## Ağıllı qapı zəngləri

**Son zamanlara qədər qapı zənginin "vəzifəsi" evimizə gələn barədə bizi xəbərdar etmək idi. Texnologiyanın sürətli inkişafı, kamera və mobil tətbiq dəstəyi ilə onlar artıq tam təhlükəsizlik platformasına çevrilib. "Amazon" və "Google" kimi aparıcı şirkətlər isə daha da irəli gedərək "ağıllı" qapı zənglərini yaradıblar. Onların yeni imkanları hər birimizi təəccübləndirəcək.**



Yeni nəsil qapı zənglərinin batareyalarla işləyən və Wi-Fi şəbəkəsinə qoşulan növləri var. Onları quraşdırmaq olduqca asandır. Zəngləri qapımızın xaricində istənilən yerə yerləşdirə və ya bərkidərək asanlıqla istifadə edə bilərik. Canlı görüntü, video çəkim, hərəkət və səs həssaslığı da onların sahib olduğu xüsusiyyətlərdir. Cihaz xüsusi proqram vasitəsilə mobil telefona və ya kompüterə qoşulur. Simsiz alətin yeganə mənfi cəhəti onun batareyalarını tez-tez dəyişdirmək və ya yenidən doldurmaqdır.

Yeni qapı zəngi ziyarətçilərinizi salamlaya və yönləndirə də bilir. Hətta qapıya çatmamış gələnlər haqqında məlumat da verir. Tez-tez "gördüyü" insanları isə üzdən tanıyır.

Evdə olmasanız belə qapını açıb-bağlayacaq... O hətta qaranlıqda rəngləri seçəcək. Qapı zəngi "ağıllı" evinizi idarə də edə bilər. Onu evdəki enerji sisteminə qoşaraq oğurluq zamanı mənzildə adam olıduğunu simulyasiya da etmək mümkündür. Belə ki, qapı zəngi aktivləşəndə və ya çalınanda, kimsənin qapıya doğru irəlilədiyini görəcək, içəridə işıqları yandıracaq.

Bunlar hələ hamısı deyil. Uzaqda olsanız, tətbiqiniz vasitəsilə qapınızı istədiyiniz şəxsə aça biləcəksiniz. Hərəkəti qəbuletmə xüsusiyyəti və "ağıllı" qapı zənglərinin ultra həssas texnologiyası sayəsində kimsə qapıya yaxınlaşıb zəngə toxunmasa belə, o, işə düşəcək. Bu da təmas olmadığı üçün xəstəliklərin və mikrobların yayılmasının qarşısını almaq məqsədi daşıyır.

"Ağıllı" qapı zəngi qonaqlarınızı üşümədən belə qoruyacaq. Belə ki, sahib gələnə qədər gözləyənlər soyuq havalarda üşüməsin deyə qapı bir metr məsafəni isidəcək.

## Həm qulaqcıq, həm də termometr

**"Apple" şirkəti yeni model naqilsiz qulaqcıqlar üzərində çalışır. Onlar istifadəçinin bədən temperaturunu və duruş mövqeyini təyin edə bilən sensorlarla təchiz olunacaq. Bundan əlavə, "AirPods" modeli eşitmə aparatı funksiyasını da yerinə yetirəcək. Bu funksiyanın artıq mövcud olan Conversation Boost adlı funksiyadan fərqlənib-fərqlənməyəcəyi bilinmir.**



Mütəxəssislər qeyd edirlər ki, bu cür texnologiyaların inteqrasiyası prosesində bəzi çətinliklər var. Daha əvvəllər "Apple" şirkəti müəyyən komponentlərin istehsalı və təchizatı ilə bağlı yaranmış problemlər üzündən dəfələrlə maraqlı ideyaların reallaşdırılmasından imtina edib.

Məlumata əsasən, sentyabr ayında təqdim edilmiş "Apple Watch 7" smart saatı bədən temperaturunun ölçülməsi texnologiyasını əldə etməli idi. Lakin "Apple" texniki problemlər səbəbilə bu ideyanın da gerçəkləşdirilməsini təxirə salıb.

Məhsulun 2023-cü ildə satışa çıxacağı proqnozlaşdırılır.

## Yeni "virtual reallıq" eynəyi

**"HTC" şirkəti "Vive Flow" adlı yeni virtual reallıq eynəyini təqdim edib. Bu cihaz "Qualcomm XR" prosessoru, 4 GB RAM və 64 GB daxili yaddaş həcmi ilə təchiz olunub. Çəkisi 189 qram olan cihazın 2 ekranı var. Bundan əlavə, cihaza bir neçə səsgücləndirici də inteqrasiya edilib. Bu səsgücləndiricilər genişhəcmli səsin boğulması özəlliyinə malik ikili mikrofonları dəstəkləyir.**



Daxili komponentlərin soyudulması üçün aktiv soyutma sistemindən istifadə edilib. Bu sistemin tərkibinə 1 ədəd kiçik soyutma pər daxildir.

"Vive Flow"un 2 ədəd ön kamerası istifadəçini virtual mühiti təyin etməyə imkan verir. Kameralar həmçinin jestlər vasitəsilə idarəetmə prosesini də tənzimləyir.

"VR" (virtual reallıq) cihazı "Miracast" adlı texnologiyanın dəstəyinə sahibdir. Bu texnologiya smartfon ekranındakı təsviri virtual mühitə ötürmək imkanını verir. Qeyd etmək lazımdır ki, "HTC Vive Flow" İOS əməliyyat sistemini dəstəkləmir. "HTC" həmçinin bu VR cihaz üçün xarici batareyanı da təklif edir. Lakin bu batareya ayrıca satılır və onun qiyməti 79 dollardır. "Vive Flow" 4-5 saat ərzində çalışa bilir.

Cihazı xarici enerji mənbəyinə qoşmaq məsləhət görülür. Bunun üçün isə ona ya yuxarıda sadalanmış xarici batareya, ya da "USB Type-C" naqili vasitəsilə qoşulmanı dəstəkləyən və 10.000 mAh batareya həcminə malik powerbank lazımdır. İstifadəçi "Vive Flow" vasitəsilə televizora və müxtəlif canlı yayımlara baxa bilər. "HTC Vive Flow" noyabrda 500 dollar qiymətində satışa çıxarılacaq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# “Azercell” növbəti dəfə ISO 37001:2016 “Antikorrupsiya idarəetmə sistemi” standartlarına uyğunluq sertifikatına layiq görüldü

**Fəaliyyət dövrü ərzində tətbiq etdiyi şəffaflıq strategiyasının nəticəsi olaraq ölkənin lider mobil operatoru “Azercell Telekom” MMC növbəti dəfə ISO 37001:2016 “Antikorrupsiya idarəetmə sistemi” standartlarına uyğunluq sertifikatı ilə təltif olunub.**




ABŞ-ın ən böyük akkreditasiya qurumu olan ANAB (ANSI National Accreditation Board) tərəfindən akkreditə olunmuş Türkiyənin Denetik Uluslararası Belgelendirme ve Gözetim Hizmetleri şirkətinin keçirdiyi sertifikatlaşdırma auditi “Azercell”in antikorrupsiya proqramının bütün tələblərə cavab verdiyini bir daha təsdiq edib.

Artıq bir neçə ildir ki, “Azercell Telekom” MMC xüsusi antikorrupsiya proqramını icra edir. Proqram şirkətin bütün fəaliyyət istiqamətləri üzrə korrupsiyanın qarşısının alınmasına xidmət etməklə yanaşı, həmçinin etik davranışın təbliğini, bu yöndə əməkdaşlar üçün təlimlərin təşkilini nəzərdə tutur. Qeyd olunan standartların tələblərinə maliyyə və qeyri-maliyyə nəzarətinin tətbiqi, korrupsiya halları barədə məlumat verilməsi üçün kanalların yaradılması, pozuntu hallarının araşdırılması, əməkdaşlıq edilən biznes subyektlərinin uyğunluq yoxlamasından keçirilməsi, həmin subyektlərdə korrupsiya riskinin azaldılması üzrə tədbirlərin görülməsi və s. aiddir.

Sertifikatı təhvil alan “Azercell”in Hüquq, Etika və Komplayens Departamentinin direktoru Şirin Əliyeva şirkətdə antikorrupsiyaya dair prosedurlara ciddi riayət edildiyini vurğulayıb: “Şirkətimizdə korrupsiyanın qarşısının alınması istiqamətində görülən tədbirlərin detallı dəyərləndirilməsi “Azercell”in beynəlxalq müstəvidə etibarlı və yüksək korporativ mədəniyyətə malik bir şirkət kimi tanındığını sübut edir. Xatırladaq ki, ötən il şirkətimiz Azərbaycanda bu sertifikatı əldə edən ilk mobil operator oldu və bu il sertifikatı təsdiqləmək üçün yenidən beynəlxalq ekspertlərin apardığı daxili yoxlamanın bütün mərhələlərindən uğurla keçərək yeni sertifikatla təltif olundu.”

Qeyd edək ki, ISO 37001 standartları Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) tərəfindən 2016-cı ildə dərc edilib və korrupsiyaya qarşı mübarizə sahəsində qlobal səviyyədə qəbul olunmuş yeganə standart hesab edilir.

# “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs

## tibb müəssisələrinin istifadəsi üçün tibbi ləvazimat və sərfiyyat materiallarının satın alınması məqsədilə

## *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanından (Əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: (+99412) 310 07 70 (daxili: 2011), **e-mail: asalayev@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

**LOT-1. Tibb müəssisələrinin istifadəsi üçün tibbi ləvazimat və sərfiyyat materiallarının satın alınması**

İştirak haqqı:

LOT-1. 500.00 (beş yüz manat 00 qəpik) manat.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: “Kapital Bank” ASC-nin Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*4. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.*
*6. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.*
*7. İddiaçının son bir ildəki fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).*
*8. İddiaçının tender təklifi (təkliflərin açıldığı gündən sonra 50 (əlli) bank günü qüvvədə olmalıdır.*
*9. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
*10. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.*
*11. Malların gigiyenik şəraitdə istehsalı və istifadəyə uyğunluğu ilə bağlı İSO 9001-2015, 14001-2015 və 45001-2018 və.s müvafiq sertifikatlar.*
*12. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya “ASAN xidmət” mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **30.11.2021-ci il saat 18:00-a** qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **08.12.2021-ci il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **09.12.2021-ci il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanında yerləşən “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən “Azərbaycan” qəzetinin 21.09.2021-ci il tarixli sayında dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan mebel avadanlıqları, habelə qapı-pəncərə sistemləri üçün ehtiyat hissələrinin satın alınması ilə bağlı kotirovka sorğusu Satınalmalar komissiyasının qərarı ilə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

# Azərbaycan-İran dövlət sərhədinin işğaldan azad olunmuş sahəsində piyada əleyhinə 1370 mina aşkarlanıb

Vətən müharibəsində dövlətimizin ərazi bütövlüyünün təmin olunmasından, o cümlədən Ermənistanla dövlət sərhədinin işğaldan azad edilməsindən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına uyğun olaraq, bu ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması işləri davam etdirilir.







Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, bu tədbirlər çərçivəsində sərhədboyu ərazilərdə şəxsi heyətin və hərbi nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin olunması üzrə mühəndis-istehkam bölmələri tərəfindən mina və partlamamış döyüş sursatların axtarışı, aşkarlanması və zərərsizləşdirilməsi fəaliyyətləri xüsusi əhəmiyyət kəsb edir.

Sərhədçi istehkamçıların ötən dövrdə Azərbaycan-Ermənistan sərhədi boyunca ümumilikdə 211 hektar ərazidə, Azərbaycan-İran dövlət sərhədinin işğaldan azad olunmuş sahəsinin 77 hektar məsafəsində həyata keçirdiyi axtarış fəaliyyətləri nəticəsində ümumilikdə 1370 ədəd piyada əleyhinə, 1438 ədəd tank əleyhinə mina, 218 partlamamış hərbi sursat, 50 silah və ləvazimat, 9560 müxtəlif çaplı sursat, partladıcı, alışdırıcı vasitə aşkarlanıb.

Hazırda azad olunmuş ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi tədbirləri davam etdirilir.

# “Yaşıl Marafon” çərçivəsində Ağdaşda 2500 ağac əkilib








IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Ağdaşda “Yaşıl Marafon” kampaniyası həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, kampaniya çərçivəsində Ağdaş rayonunun meşə fondu torpağının 2 hektar ərazisində nazirliyin rəsmilərinin, IDEA İctimai Birliyi və ETSN könüllülərinin iştirakı ilə 2500 meşəcinsli ağac əkilib və palıd toxumu səpilib. Qeyd edək ki, payız ağac əkini ilə əlaqədar ölkə ərazisində genişmiqyaslı ağacəkmə tədbirləri keçirilir, meşə və qeyri-meşə fondu torpaqlarında hər bölgənin iqlim şəraitinə uyğun müxtəlif cinsli ağaclar əkilir, toxumlar səpilir.

# “Şuşa - zülmətdən işığa”

“Azərişıq” ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, “Azərişıq” ASC-nin Şuşa şəhərini ilkin mərhələdə elektrik enerjisi ilə təchiz etməsi ilə bağlı görülən işləri özündə əks etdirən “Şuşa - zülmətdən işığa” adlı yeni film hazırlanıb.

Xatırladaq ki, Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin göstəriş və tapşırıqlarına uyğun olaraq, cəmi 37 gün ərzində Şuşa şəhəri elektrik enerjisi ilə təchiz edilib.

Filmdə 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatı ilə başlayan və 44 gün sonra Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşan Vətən müharibəsi dövründə qurumun fəaliyyəti, mina təhlükəsi, çətin relyef, qarlı qış günləri və s. kimi ağır şəraitə baxmayaraq, cəsur əməkdaşların ən ağır şəraitdə fəaliyyətindən bəhs edilir.

“Şuşa - zülmətdən işığa” filmində danışan “Azərişıq” əməkdaşları yolsuzluq və qarlı-çovğunlu hava şəraitində onların qarşılarına qoyulmuş vəzifənin öhdəsindən necə gəlmələrindən bəhs ediblər.

# Vahid əlaqələndirmə mərkəzlərinə 2100-dən çox şəhid ailəsi üzvü və qazi müraciət edib

Bakıdakı DOST mərkəzlərindəki vahid əlaqələndirmə mərkəzlərinə ötən dövrdə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibədə xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 2119 şəxs (o cümlədən Çağrı mərkəzi-142 vasitəsilə 207 şəxs) müraciət edib.




Vahid əlaqələndirmə mərkəzləri Prezident İlham Əliyevin 2021-ci il 25 iyun tarixli Fərmanına əsasən yaradılıb.

Bu mərkəzlərdə şəhid ailələri üzvlərinə, müharibədə xəsarət almış hərbi qulluqçulara, müharibə əlillərinə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə və s. sahələr üzrə 19 dövlət orqanı (6 mərkəzi, 13 yerli icra hakimiyyəti orqanı) tərəfindən 26 istiqamətdə xidmətlər “bir pəncərə”dən, operativ, şəffaf şəkildə, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilir.

İlk mərhələdə Bakıdakı DOST mərkəzlərində avqustun 23-dən fəaliyyətə başlayan mərkəzlərə edilən müraciətlərin bölgüsü aşağıdakı kimidir:

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 570 müraciət;
- Müdafiə Nazirliyi üzrə 852 müraciət;
- Səhiyyə Nazirliyi üzrə 48 müraciət;
- Səfərbərlik və Hərbi Xidmətə Çağırış Dövlət Xidməti üzrə 87 müraciət;
- Yerli icra hakimiyyəti orqanları üzrə 149 müraciət;
- İcbari Tibbi Sığorta Dövlət Agentliyi üzrə 46 müraciət;
- Dövlət Sığorta Kommersiya Şirkəti üzrə 160 müraciət;
- Çağrı mərkəzi-142 vasitəsilə 207 müraciət.







# ALLAH RƏHMƏT ELƏSİN!

Baba Rzayev və “Azərenerji” ASC-nin kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova və Milli Məclisin deputatı Nizami Səfərova anaları

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və “Azərenerji” ASC-nin kollektivi Milli Məclisin deputatı Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova və Milli Məclisin deputatı Nizami Səfərova anaları

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət investisiyaları şöbəsinin müdiri Əli Hacıyevə anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Vüqar Quliyevə anası

**MƏSMƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimləri və kollektivi məhkəmənin hakimi Qumru Əliyevaya atası

**YƏHYA ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kürdəmir Rayon Məhkəməsinin kollektivi Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Rəşid Rzayevə həyat yoldaşı

**GÜLNARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azneftemaş” ASC-nin prezidenti Şahmar Vəliyev Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət investisiyaları şöbəsinin müdiri Əli Hacıyevə anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azneftemaş” ASC-nin prezidenti Şahmar Vəliyev Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Rəşid Rzayevə həyat yoldaşı

**GÜLNARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azneftemaş” ASC-nin prezidenti Şahmar Vəliyev Milli Məclisin deputatı Nizami Səfərova anası

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5610
Sifariş 1987
Qiyməti 40 qəpik